

XALQ DÖVLƏT ÜÇÜN YOX, DÖVLƏT XALQ ÜÇÜN OLMALIDIR...

# BİNƏQƏDİ

№22 (159) | 30 dekabr 2016

İCTİMAİ-SİYASİ QƏZET

Qiyməti: 40 qəpik


Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 55 yaşı tamam olub

SƏH. 2

## Prezident İlham Əliyev Dünya azərbaycanlılarını təbrik edib



Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü bütün soydaşlarımızın mənəvi birliyinin rəmzi kimi hər il geniş qeyd olunur. Bu sevimli bayram ərəfəsində sizi ürəkdən salamlayır, hamınıza xoşbəxtlik və əmin-amanlıq arzulayıram.

Ümummilli lider Heydər Əliyevin nəsihətlərinə əməl edən Azərbaycan dövləti başqa ölkələrdə məskunlaşmış həmvətənlərimizin taleyinə diqqətlə yanaşır, onların hüquqlarının qorunmasına, milli-mənəvi birlik ideyaları ətrafında təşkilatlanması məsələsinə xüsusi əhəmiyyət verir. Təqdirəlayiq haldır ki, xarici ölkələrdə yaşayan soydaşlarımız da Azərbaycan Respublikası ilə əlaqələrini gücləndirir, doğma Vətənə məhəbbət və sədaqət nümayiş etdirirlər. 2016-cı ilin iyununda Bakıda keçirilmiş Dünya Azərbaycanlılarının IV Qurultayı xaricdə yaşayan həmvətənlərimiz arasında birliyin daha da möhkəmləndirilməsi, diaspor təşkilatlarının fəaliyyətinin genişləndirilməsi yolunda mühüm hadisə oldu.

Qürur hissi ilə qeyd edirəm ki, bu ilin oktyabrında Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beş ili tamam olmuşdur. Ötən dövr ərzində yaradılmış iqtisadi potensial, nail olduğumuz sosial tərəqqi və ictimai-siyasi sabitlik dünyada hələ də davam edən qlobal maliyyə-iqtisadi böhranın təsirlərini azaltmağa, ölkəmizi risklərdən qorumağa imkan verir.

İnanıram ki, bütün soydaşlarımızın əlbir fəaliyyəti, doğma Azərbaycan torpağına sarsılmaz sədaqəti gücümüzü daha da artıracaq, inkişafımıza əngəl törədən yeganə ağrılı problemi – Ermənistanın hərbi təcavüzünü tezliklə aradan qaldırmağa, ölkəmizin ərazi bütövlüyünü bərpa etməyə imkan yaradacaq.

Biz Vətənimizin çiçəklənməsi, qüdrətinin artırılması və suverenliyinin möhkəmləndirilməsi məqsədilə qarşımıza böyük vəzifələr qoymuşuq. Həmin vəzifələrin həlli üçün bütün həmvətənlərimiz, o cümlədən xaricdə yaşayan soydaşlarımız sıx birləşməli, harada yaşamalarından asılı olmayaraq, milli maraqlarımızı qətiyyətlə qorumalıdırlar.

Sizi Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə səmimi qəlbdən təbrik edir, hər birinizə səadət, firavanlıq və bütün işlərinizdə uğurlar diləyirəm.

*İlham ƏLİYEV*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 24 dekabr 2016-cı il.*


TƏDBİR SƏH. 3



Apellyasiya Şurasının növbəti iclası keçirilib

SOSİAL SƏH. 4



Ötən ilə bir nəzər...

MÜSAHİBƏ SƏH. 6



Ordumuzun Horadiz zəfəri


# Bakıda 1 saylı "ASAN kommunal" mərkəzi açılıb



Dekabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda 1 saylı "ASAN kommunal" Mərkəzinin açılışında iştirak edib və Biləcəri stansiyasında səyyar "ASAN qatar"la tanış olub.

Prezident Administrasiyanın hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov və Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov mərkəzdə yaradılan şərait barədə dövlətimizin başçısına məlumat veriblər.

"ASAN kommunal" mərkəzlərinin yaradılması ilə bağlı tədbirlər haqqında Prezident İlham Əliyevin bu ilin mayında imzaladığı Fərmanla bu mərkəzlərin yaradılması Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə tapşırılıb. Pilot layihə çərçivəsində 1 saylı "ASAN kommunal" Mərkəzi paytaxtın Nəsimi, Nərimanov və Binəqədi rayonlarında qeydiyyatda olan 653 600 vətəndaşa xidmət edəcək.

Prezident İlham Əliyevə hazırda Bakı şəhərində inşa edilən 2 və 3 saylı "ASAN kommunal" mərkəzləri barədə də məlumat verilib.

Sonra dövlətimizin başçısı mərkəzin kollektivi ilə görüşərək çıxış edib.

Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, "ASAN xidmət" öz fəaliyyətini genişləndirir: ""ASAN xidmət", o cümlədən "ASAN kommunal" mərkəzlərində ən yüksək xidmət göstərilir və göstəriləcək. Bina da çox yaraşıqlıdır, çox gözəldir. Vətəndaşlar üçün də yaxşı şərait yaradılıb. Burada işləyənlər üçün yaxşı şərait yaradılıb. Bu, ölkəmizin müasirliyini, inkişafını göstərir, bizim siyasətimizi əks etdirir.

Bildiyiniz kimi, bu yaxınlarda mənim göstərişimlə kommunal tariflərin həcminə düzəlişlər edilibdir. Bu da sırf sosial yanaşma idi. Çünki növbəti düzəlişdən sonra artıq vətəndaşların 75-80 faizi işıq və qaz pulunu köhnə tariflərlə ödəyəcək. Yəni, bu, o deməkdir ki, əhalimizin əksəriyyəti bu dəyişikliyi hiss etməyəcək, əksinə, görülmüş tədbirlər nəticəsində vətəndaşların sosial müdafiəsi gələn il daha da möhkəmlənəcək.

"ASAN xidmət" təşəbbüsü də sosial xarakter daşıyır. Çünki bu, vətəndaşlara göstərilən xidmətdir. Vətəndaşlar bu xidmətdən istifadə edərək heç bir çətinlik çəkmirlər. Təsadüfi deyil ki, "ASAN xidmət"in bəyənilmə əmsalı təxminən 100 faizə yaxındır. Yəni, bu, camaatın, insanların bu xidmətə verdikləri qiymətdir. Son bir neçə il ərzində 13 milyon müraciət olmuşdur. Yəni, bu, doğrudan da ölkəmizdə geniş vüsət alıb. Həm "ASAN xidmət"in coğrafi əhatəsi genişlənir, həm də funksiyaları artır. Artıq bizim 11 mərkəzimiz var. Onlardan altısı bölgələrdə yerləşir. Gələn il Quba və Mingəçevir şəhərlərində iki yeni mərkəz açılacaq. Gələn il, eyni zamanda, digər iki şəhərimizdə – Şəkidə və İmişlidə növbəti mərkəzlərin tikintisi başlanacaq.

"ASAN səyyar" xidməti göstərilir. Bu gün biz "ASAN qatar" sistemini də işə salacağıq. "ASAN viza" artıq fəaliyyət göstərir. Mənə verilən məlumata görə, artıq bu proses başlayır və əminəm ki, gələn il çox geniş vüsət alacaq. Bu da "ASAN"ın növbəti addımıdır. Beləliklə, "ASAN xidmət" öz fəaliyyətini genişləndirir. Mən bir neçə dəfə demişəm ki, "ASAN xidmət"də mövcud olan mədəni xidmət, qayda-qanun, nizam-intizam, şəffaflıq hər bir yerdə olmalıdır. Ona görə "ASAN xidmət" hər bir sahədə öz təsirini göstərməlidir və göstərir.

Əlbəttə ki, biz "ASAN xidmət"i könüllülər hərəkatından ayıra bilmərik. Bu da bir yenilikdir. "ASAN" yaranana qədər Azərbaycanda könüllülər hərəkatı olmamışdır. Biz könüllülər haqqında eşitmişdik. Ancaq könüllülər hərəkatı nədir, onu bilmirdik. Bu gün artıq bu hərəkat Azərbaycanda yaşayır. Mənə verilən məlumata görə, 10 min gənc artıq könüllü kimi "ASAN xidmət" mərkəzlərində işləyib və bu insanların bir çoxu bu gün müxtəlif vəzifələrdə, müxtəlif işlərdə ölkəmizin gələcək inkişafı üçün çalışırlar. Hazırda bütün bu mərkəzlərdə 700-dən çox könüllü fəaliyyət göstərir. İki il bundan əvvəl mən könüllülərin birinci toplantısında onlarla görüşmüşdüm.

Nəhayət, bu mərkəzlərin bir xüsusiyyəti də var ki, burada iş yerləri açılır. Bu mərkəzdə təxminən yüzə qədər yeni iş yeri açılır. İşləyənlərin demək olar ki, hamısı gənclərdir və onların əksəriyyəti qadınlar, qızlardır. Bu da məni çox sevindirir. Çünki bizdə qadınlar da işlə təmin olunmalıdırlar. Beləliklə, biz həm işsizliklə bağlı uğurla mübarizə aparmış oluruq, həm də ki, qadınlar cəmiyyətimizin fəal üzvləri kimi dövlətimizə xidmət göstərmiş olurlar.

Mən sizi bu mərkəzin açılışı münasibətilə təbrik edirəm. Qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə sizi təbrik edirəm və yeni uğurlar arzulayıram".

Sonda 1 saylı "ASAN kommunal" Mərkəzində çalışan "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin əməkdaşı Gülnar ALLAHVERDİYEVA burada yaradılan şəraitə görə dövlətimizin başçısına minnətdarlığını bildirib.

Daha sonra Prezident İlham Əliyev səyyar "ASAN qatar"la tanış olmaq üçün "Azərbaycan Dəmir Yolları" QSC-nin Biləcəri stansiyasına gəlib.

"Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov görülən işlərlə bağlı dövlətimizin başçısına ətraflı məlumat verib.

Dövlətimizin başçısı səyyar "ASAN qatar"larda yaradılan şəraitlə tanış olub.

Bildirildi ki, ölkəmizdə geniş dəmiryolu şəbəkəsindən, mövcud infrastrukturdan, kommunikasiya xətləri və ən müasir texnologiyalardan istifadə edərək yerlərdə vətəndaşlara yeni konsepsiya ilə xidmət göstərilməsi nəzərdə tutulur.

Prezident İlham Əliyev səyyar "ASAN qatar" xidmətinin fəaliyyətə başlamasını bildirən düyməni basdı.

"ASAN qatar"da ölkəmizdə dəmiryolu nəqliyyatının inkişafında böyük xidmətləri olan ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin bu sahəyə diqqət və qayğısının, həmçinin "ASAN xidmət" mərkəzlərinin açılışlarında iştirakının əks olunduğu fotoguşə yaradılıb. Səyyar "ASAN qatar" vasitəsilə 4 dövlət orqanı – Ədliyyə, Daxili İşlər, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri, həmçinin Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən 9 növ xidmət göstəriləcək. Eyni zamanda, qatarda 3 növ funksional yardımçı xidmətlər – foto və tibb xidməti, o cümlədən "Azərpoçt" MMC tərəfindən göstərilən bank xidmətləri təşkil edilib. Burada ilk dəfə olaraq "Azərbaycan Dəmir Yolları" QSC-nin xidmətləri üçün ayrıca pəncərə yaradılıb. "ASAN qatar"da 25 əməkdaş, 6 könüllü işləyəcək.

# Azərbaycan Prezidenti "Bakı Ağ Şəhər"də görülən işlərlə tanış olub



Dekabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva "Bakı Ağ Şəhər"də görülən işlərlə tanış olub, Fəvvarələr Meydanı parkı, ictimai parkinq və piyada keçidi kompleksinin təməlqoyma mərasimində iştirak ediblər.

"Azəravtoyol" ASC-nin sədri Saleh Məmmədov və "Bakı Ağ Şəhər" layihəsinin icraçı direktoru Ruslan Sadıxov dövlətimizin başçısına ötən müddətdə görülən işlər barədə məlumat veriblər.

Qeyd olunub ki, burada mükəmməl infrastruktur formalaşdırılıb. Xəqani Rüstəmov küçəsi ilə Nobel prospektinin kəsişməsindəki yeraltı piyada keçidində işlər tamamlanmaq üzrədir. Burada 220 metr uzunluğunda qalereyanın tikintisi yekunlaşıb, hazırda mərmər-qranitdən istifadə olunmaqla tavanın üzlənməsi işləri davam etdirilir. Həmin keçiddə 8 eskalator quraşdırılıb. Bundan başqa, layihə çərçivəsində daha iki piyada keçidinin inşası nəzərdə tutulur.

Dövlətimizin başçısı və xanımı Yaşıl Ada kvartalının artıq məskunlaşdırılan ilk məhəllələri ilə tanış oldular.

Prezident İlham Əliyevə xüsusi detallarla bəzədilən, klassik üslublu Paris evlərinin məhəllələrində aparılan abadlıq və yaşıllıq, infrastruktur-kommunikasiya işləri barədə ətraflı məlumat verilib. Burada sakinlərin rahatlığı və dolğun istirahətləri üçün hərtərəfli şərait var.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Yaşıl Ada kvartalı çərçivəsində salınan yeni yaşıllıq məkanı ilə də tanış olublar.

Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva "Bakı Ağ Şəhər" ərazisində tikinti işlərinin gedişi ilə tanış olmaq üçün avtobusla gəzintiyə çıxdılar.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva "Bakı Ağ Şəhər" çərçivəsində layihələndirilən Fəvvarələr Meydanı parkı, piyada keçidi və ictimai parkinq kompleksinin təməlqoyma mərasimində də iştirak ediblər.

Dövlətimizin başçına məlumat verildi ki, Fəvvarələr Meydanının sahəsi keçmiş "Qara Şəhər"in ən çox çirklənmiş ərazilərindən biri sayılırdı. Yeddimərtəbəli müasir üslublu yaşayış binaları, park, ictimai avtodayanacaq və piyada keçidindən ibarət olacaq bu kvartalda hazırda tikinti işləri gedir. Yaşayış binalarının əhatə etdiyi parkda 3 qrupdan ibarət fəvvarələr, eksklüziv uşaq meydançası, xüsusi landşaft dizaynı və 760 yerlik avtodayanacaq tikiləcək. Fəvvarələr Meydanında layihələndirilən park və piyada keçidi "Ağ Şəhər" boyunca piyadaların gəzintisi və mənalı istirahətinə geniş imkanlar açacaq. Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva "Bakı Ağ Şəhər" çərçivəsində layihələndirilən Fəvvarələr Meydanı parkı, piyada keçidi və ictimai parkinq kompleksinin təməlini qoydular.

Daha sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva burada ağac əkdilər.

# Görkəmli siyasi və dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 55 yaşı tamam olub

İlham Heydər oğlu Əliyev 1961-ci il dekabrın 24-də Bakı şəhərində anadan olub. Orta təhsilini 1967-1977-ci illərdə Bakı şəhərində alan İlham Əliyev 1977-ci ildə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutuna daxil olub, ali təhsilini müvəffəqiyyətlə başa vuraraq elmi fəaliyyətini institutun aspiranturasında davam etdirib.

1985-ci ildə dissertasiya müdafiə edən İlham Əliyev tarix elmləri namizədi alimlik dərəcəsi alıb və 1990-cı ilədək həmin institutda müəllim kimi fəaliyyət göstərib. 1994-2003-cü illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) vitse-prezidenti, sonra isə birinci vitse-prezidenti vəzifəsində çalışıb. 1995-ci və 2000-ci illərdə Milli Məclisin deputatı seçilən İlham Əliyev 2001-2003-cü illərdə Avropa Şurası Parlament Assambleyasında (AŞPA) Azərbaycan nümayəndə heyətinin rəhbəri olub. AŞPA-da siyasi fəaliyyəti çərçivəsində 2003-cü ilin yanvar ayında qurumun sədr müavini və Büro üzvü seçilib.

2003-cü ildə Baş nazir vəzifəsinə təyin edilməsi ilə əlaqədar İlham Əliyevin deputat səlahiyyətlərinə xitam verilib və həmin il oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti seçilib. 2008-ci il oktyabrın 15-də keçirilən seçkilərdə seçicilərin 88 faizindən çoxunun səsini qazanan İlham Əliyev yenidən Azərbaycan Respublikasının Prezidenti seçilib. 2013-cü il oktyabrın 9-da keçirilən prezident seçkilərində isə növbəti dəfə qələbə qazanıb.

1997-ci ildən Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti kimi fəaliyyət göstərən İlham Əliyev idmanın və Olimpiya hərəkatının inkişafında böyük xidmətlərinə görə Beynəlxalq Olimpiya Komitəsinin ali ordeni ilə təltif edilib.

Azərbaycan, rus, ingilis, fransız və türk dillərini mükəmməl bilir. Evlidir, üç övladı, üç nəvəsi var.

Azərbaycan prezidenti İlham Əliyevi doğum günü münasibətilə təbrik edir, dövlət başçısına uzun ömür, cansağlığı, fəaliyyətində uğurlar arzulayırıq!



## Binəqədi ziyalıları Prezident İlham Əliyev haqqında

### Yeniyetmələr vətənpərvər ruhda tərbiyə edilir

**Nəbi Mahmudov, 83 saylı məktəb-liseyin direktoru:**



"Ulu öndərin ən yaxın silahdaşı, onun müdrik siyasətinin davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev fəaliyyəti dövründə həmişə gənclərin və yeniyetmələrin vətənpərvərlik ruhunda tərbiyə edilməsinə xüsusi önəm verib. Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağın münaqişə ocağına çevrilməsinin bütün morfologiyası İlham Əliyev diplomatiyasının daim diqqət mərkəzində olub.

> Ölkə Prezidenti tərəfindən həyata keçirilən siyasətin prioriteti gənclərlə işdir.

Ölkəmizin siyasi, iqtisadi və beynəlxalq əlaqələrinin genişlənməsi və maraqlarının təmin olunması sahəsində varisliyə sadiq qalan Prezident İlham Əliyev xalqın seçdiyi yolun alternativsizliyini hər bir məqamda vurğulayıb.

Bu gün ölkə Prezidenti tərəfindən həyata keçirilən siyasətin prioritet istiqamətlərindən biri də gənclərlə işdir. Müstəqil dövlətimizdə yeni nəslin nümayəndələri vətənpərvər ruhda tərbiyə edilməli, geniş dünyagörüşünə malik olmalı, intellektual baxımdan inkişaf etməli, fiziki baxımdan sağlam olmalıdırlar.

Ümumtəhsil məktəblərinin ən vacib vəzifələrindən biri yeniyetmələr arasında vətənpərvərlik hisslərinin tərbiyəsi və aşılanmasıdır. Həmin sahədə həyata keçirilən kütləvi tədbirlər, maarifləndirmə və təbliğat işləri bilavasitə gənclərin mənəvi, fiziki, psixoloji hazırlığının təmin edilməsinə, onlarda Vətənə, doğma torpağa məhəbbət hissinin yüksəldilməsinə, eləcə də müasir dünyamızda qloballaşmanın geniş vüsət aldığı bir zamanda milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına yönəldilir. Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" təsdiq olunub. Məktəblərdə informasiya və kommunikasiya texnologiyalarının (İKT) tətbiqi vacib məsələlərdəndir. Ölkə başçısının bu istiqamətdə vaxtında atdığı addımlar öz müsbət bəhrəsini verməkdədir. İKT-nin tətbiqi bizim məktəbimizdə də uğurla icra olunur. Təhsil müəssisəsində yeni texnologiyalardan müvəffəqiyyətlə istifadə edirik. Deyim ki, İKT vasitələri öz geniş imkanları ilə təhsil prosesini xeyli sadələşdirir, onu dinamik və çevik edir".

### Milli-mənəvi dəyərlərə bağlılıq dövlətin prioritet istiqamətlərindəndir

**Natəvan Əsədova, 3 saylı orta məktəbin direktoru:**



"Heç kəsə sirr deyil ki, gənclik bir millətin yaşaması, inkişafı üçün təməl daşıdır. Millətin millətlər arasında imzası olması üçün onun sağlam gəncliyi müstəsna rol oynayır. Çünki hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır. Bu baxımdan, ölkəmizdə gənclərlə iş sahəsində görülən tədbirlər Azərbaycan gəncliyinin inkişafına təkan vermiş, onların cəmiyyətdə özlərini təsdiq etməsində böyük rol oynamışdır. Bu gün gənc nəslin düzgün yetişdirilməsi ölkə siyasətində önəmli yer tutur. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə öz sözlərini yüksək səslə deməyə qadirdirlər.

Ölkəmizdə məqsədyönlü şəkildə həyata keçirilən işlərin nəticəsi olaraq, müasir Azərbaycan gəncliyi yeni inkişaf mərhələsinə qədəm qoyub. Təhsil sahəsində aparılan islahatlar da gənclər siyasətinin ən vacib istiqamətlərindən biridir. Gənclərin maariflənməsinə, savadlanmasına, elmi inkişafına göstərilən xüsusi diqqət və qayğının davamı olaraq, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xaricdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində tələbələrin dünyanın məşhur universitetlərində təhsil almaq üçün göndərilməsi xüsusi diqqətə layiqdir.

Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli iştirakının təmin olunması, milli-mənəvi dəyərlərə bağlılığının möhkəmləndirilməsi üçün də dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir. Sosial həyatın bütün sferalarına nəzər salsaq, görərik ki, orada gənclər əksəriyyət təşkil edir. Təbii ki, bu, cənab Prezidentin gənc kadrların irəli çəkilməsi ilə bağlı qarşıya qoyduğu vəzifənin reallaşmasının nəticəsidir. Gənclər də dövlət qayğısını daim öz üzərlərində hiss edərək, nailiyyətləri ilə onlara göstərilən qayğını doğrultmağa çalışırlar. Bu yüksək münasibətə cavab olaraq, ölkəmizin parlaq gələcəyinin təminatçısı olan gənclər bütöv və müstəqil Azərbaycan naminə bütün güclərini toplamalı, vətənin inkişafı üçün səylə çalışmalı, öz siyasətində onlara arxalanan ölkə Prezidentinin etimadını həmişə doğrultmalıdırlar.

> Bu gün gənc nəslin düzgün yetişdirilməsi ölkə siyasətində önəmli yer tutur. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə öz sözlərini yüksək səslə deməyə qadirdirlər.

3 saylı məktəb 1977-ci ildən fəaliyyət göstərir. Təhsil müəssisəsi müxtəlif nominasiyalar üzrə birinci yerdə olub. Bu, bizim üçün böyük fəxrdir. Məktəbimiz bir çox layihələrə qoşulub. Bunlardan "Sağlam təhsil", "Tədrisin təmayüllər üzrə təşkili", "Valideyn icması", "Məktəblilərin dostu" və s. layihələrə qoşulmuşuq. 9-cu siniflər arasında buraxılış imtahanı üzrə rayon məktəbləri arasında 5-ci, 6-cı siniflərin göstəricilərinə görə Azərbaycan dili üzrə 2-ci, riyaziyyat fənni üzrə isə 3-cü olmuşuq. Məktəbimizin məzunlarından 6-sı 600-dən çox bal toplayıb. Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurası və Ali Neft Akademiyası tərəfindən məktəbə təşəkkürnamə göndərilib. Məzunlarımız yüksək səviyyəli təhsil və tərbiyələrini oxuduqları ali məktəblərdə də nümayiş etdirirlər. Bu, bizi çox sevindirir. Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov tərəfindən Təhsil Nazirliyinə rayonun ictimai-siyasi həyatında fəal iştirakımıza görə təşəkkür məktubu göndərilib. Çalışacağıq ki, bundan sonra da göstərilən etimadı doğruldaq.

Məktəbimizin kollektivi adından dövlət başçımızı ad günü münasibətilə təbrik edir, uzun ömür, cansağlığı arzulayırıq".

### Təhsilimizin inkişafı diqqət mərkəzindədir

**Tünzalə Zeynalova, 283 saylı tam orta məktəbin direktoru:**



"Azərbaycan Prezidenti İlham Əliyev təkcə Heydər Əliyevin siyasi varisi deyil, bütövlükdə dahi şəxsiyyətin həyat məktəbinin yetirməsidir. Bu gün Prezident İlham Əliyev ulu öndərimizin müstəqil Azərbaycanın gələcəyi üçün nəzərdə tutduğu bütün işləri böyük uğurla həyata keçirir. İnamla demək olar ki, ötən illər aparılan uğurlu siyasət nəticəsində Azərbaycanın beynəlxalq miqyasda nüfuzu əhəmiyyətli dərəcədə artıb. İndi ölkəmiz inkişaf etmiş dövlətlərin sırasına qoşulub. Bütün bunlar Prezident İlham Əliyevin dövlətçilik sahəsində böyük təcrübəyə və xüsusilə, yaradıcılıq təcrübəsinə malik olmasının nəticəsidir.

Təhsil sahəsində də uğurlarımız var. Təhsillə bağlı dövlət tərəfindən qəbul olunan qərar və layihələr Azərbaycan təhsilinin dünyaya inteqrasiyasına, milli və mənəvi dəyərlər zəminində yüksəlişinə layiqincə xidmət etməkdədir. Ölkəmizdə istənilən sahədə, o cümlədən təhsildə inkişaf nəzərəçarpacaq dərəcədə artıb. Ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş təhsil islahatı möhtərəm Prezidentimiz İlham Əliyevin bu sahədə atdığı innovativ addımlarla davam etdirilir. Ölkənin təkcə iri şəhərlərində deyil, bölgələrində də ən müasir tələblərə cavab verən məktəblər inşa edilməkdədir. Yeni inşa edilən məktəblər öz arxitekturası baxımından da diqqəti cəlb edir. Demək olar ki, hər il respublikamızda onlarla yeni məktəb istifadəyə verilir və ya əsaslı şəkildə təmin olunur. Bu, Azərbaycan Prezidentinin təhsilə göstərdiyi qayğının bariz nümunəsidir.

Ötən tədris ilindi bizim məktəbimiz də əsaslı təmir olunaraq istifadəyə verilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev məktəbimizdə həyata keçirilən təmir və yenidənqurma işlərindən sonrakı vəziyyətlə tanış olub. Sinif otaqlarımız müasir avadanlıqlarla və kompüterlərlə təmin olunub. Prezidentimizin məktəbimizə gəlməsi bizim üçün fərəhləndirici haldır. Sözsüz ki, yeni məktəb binalarının əsaslı təmir edilməsi təhsil sahəsinin ən müasir tələblər səviyyəsinə çatdırılmasına geniş imkanlar yaradır. Təhsilin inkişaf konsepsiyasından irəli gələn müddəalar Binəqədi rayonunda da uğurla həyata keçirilir. Məktəblərdə yaradılan şərait, nizam-intizam, müəllimlərə, eləcə də şagirdlərə göstərilən qayğı rayonumuzda təhsilin inkişafına öz faydasını verməkdədir. Bunun nəticəsidir ki, rayonumuzda fəaliyyət göstərən təhsil müəssisələri Bakı şəhəri üzrə ön sıralarda qərar tutub. Hər il onlarla məzunumuz yüksək balla ali məktəblərə qəbul olunur. Məktəblərimizdə gənclərin vətənpərvər ruhda yetişməsinə xüsusi önəm verilir. Bir sözlə, bu gün ölkəmiz istər siyasi, istər iqtisadi, istərsə də təhsilin inkişafı baxımından dünyanın diqqət mərkəzindədir. Biz bir təhsil işçisi kimi həmişə cənab Prezidentin və onun xanımı, Heydər Əliyev Fondunun rəhbəri Mehriban Əliyevanın bu sahəyə diqqət və qayğısını hiss etmişik. Bütün bunlar bir daha təsdiq edir ki, ulu öndərimizin müəyyənləşdirdiyi və Prezident İlham Əliyevin məharətlə davam etdirdiyi müdrik siyasi xəttə alternativ yoxdur.

> İnamla demək olar ki, ötən illər aparılan uğurlu siyasət nəticəsində Azərbaycanın beynəlxalq miqyasda nüfuzu əhəmiyyətli dərəcədə artıb. İndi ölkəmiz inkişaf etmiş dövlətlərin sırasına qoşulub.

Məktəbimizin kollektivi adından cənab Prezidenti ad günü münasibətilə ürəkdən təbrik edir, cansağlığı və işlərində uğurlar diləyirik!"

BİNƏQƏDİ

Təsisçi:
**Binəqədi Rayon İcra Hakimiyyəti**

Baş redaktor:
**Rüfət Mərdanov**

Ünvan:
**AZ1130, Bakı, Binəqədi rayonu, Nizami Nərimanov küçəsi, 75**

Tel.: **(012) 563 57 28**

E-mail: **bineqedi-qazet@mail.ru**

Qeydiyyat nömrəsi: **55** | VÖEN: **1002874841**

"Binəqədi" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Tiraj: **2000** | Qiyməti: **40 qəpik**

# Apellyasiya Şurasının növbəti iclası keçirilib



Dekabrın 21-də Binəqədi Rayon İcra Hakimiyyətinin Apellyasiya Şurasının iclası keçirilib. Bu barədə qəzetimizə daxil olan məlumatda bildirilib ki, Apellyasiya Şurasının sədri İlqar Süleymanov, Şura Katibliyinin rəhbəri Elnur İmanov, Şura üzvləri Ramiz Göyüşov, Yunis Hüseynov, Elşad Rəhimov və Mübariz Məmmədovun iştirak etdikləri iclasda fərdi sahibkar Yaqub Məmmədovun müraciətinə baxılıb və "Yerli icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Nümunəvi Əsasnamə"yə uyğun olaraq, qərar qəbul edilib.

Xatırladaq ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 3 fevral 2016-cı il tarixdə imzaladığı "Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apelyasiya Şuralarının yaradılması haqqında" fərmanının icrası ilə əlaqədar olaraq, Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müvafiq sərəncamı ilə icra hakimiyyəti yanında Apellyasiya Şurası yaradılıb.

Sahibkarlıqla məşğul olan fiziki və hüquqi şəxslər tərəfindən özlərinin sahibkarlıq fəaliyyəti ilə bağlı yerli icra hakimiyyəti orqanının sərəncamından, əmrindən, hərəkət və ya hərəkətsizliyindən (korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı müraciətlər istisna olmaqla) verilmiş təkrar şikayətlərə baxılması məqsədi ilə yaradılan Şuraya Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini İlqar Süleymanov sədr təyin edilib. Üzvlərinin sayı 6 nəfərdən ibarət olan Şuranın tərkibinə RİH başçısı Aparatının strukturuna aid olan şöbələrin rəhbər şəxsləri və icra hakimiyyəti başçısının Rəsulzadə qəsəbəsi üzrə nümayəndəsi daxil edilib, o cümlədən katibliyin rəhbəri və üzvləri müəyyənləşdirilib. Cari ilin fevral ayının 19-da Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov Apelyasiya Şurasının və katibliyin üzvləri ilə görüşüb.

Görüşdə Şura üzvlərinə fəaliyyətlərinin "Yerli icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında" Nümunəvi Əsasnamə"yə uyğun qurulması ilə bağlı tapşırıqlar verilib.

# Binəqədi rayon bələdiyyə üzvləri İtaliyada




"Şərq Tərəfdaşlığı Proqramı" çərçivəsində Avropa Birliyi və Avropa Şurası tərəfindən üzv ölkələrin yerli özünüidarəetmə orqanları üçün seminar-təcrübə mübadiləsi keçirilib. İtaliyada təşkil edilən seminarda Azərbaycan, Gürcüstan, Moldova, Belarus, Ukrayna və digər ölkələrdən ümumilikdə 40-dan çox nümayəndə iştirak edib.

Sözügedən tədbirdə Azərbaycanı Binəqədi qəsəbə bələdiyyəsinin sədri Aytac Əliyeva və Qaraçuxur bələdiyyəsinin sədr müavini Lyudmila Xəlilova təmsil ediblər. Aytac Əliyeva seminarda Binəqədi rayonunda bələdiyyələrin gördüyü işlərlə bağlı təqdimatla çıxış edib.

# Millət vəkili seçicilərlə növbəti görüşünü keçirib



Dekabırın 20-də millət vəkili Azay Quliyev YAP Binəqədi rayon təşkilatının binasında seçiciləri ilə növbəti görüşünü keçirib.

Seçicilər məşğulluq, hüquq, təhsil, mənzil-kommunal məsələləri və müxtəlif dövlət qurumları ilə bağlı müraciətlərini millət vəkilinə çatdırıblar. İrəli sürülən məsələlərin bəzilərini yerindəcə həll edən Azay Quliyev, digərlərinin aradan qaldırılması istiqamətində müvafiq qərarlar qəbul edib.

Görüşdə Binəqədi rayon İcra Hakimiyyətinin nümayəndələri də iştirak ediblər.

# Radikalizm və terrorizmin fəsadlarından bəhs edən tədbir

284 saylı tam orta məktəbdə "Radikalizm və ekstremizm, terrorizm və separatizmin fəsadları" mövzusunda tədbir keçirilib.

Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Rauf Həsənov, Dövlət Təhlükəsizlik XİdmətİNİN Binəqədi rayon İdarəsinin məsul əməkdaşı Namiq Hüseynov, məktəbin kollektivi, Həmkarlar İttifaqı təşkilatının sədri, YAP fəalları və "Məktəblinin dostu" layihəsində ASAN Xidməti təmsil edən nümayəndələr iştirak ediblər. Giriş sözü ilə çıxış edən məktəbin direktoru Nizami Novruzov iştirakçıları salamlayıb və tədbirin əhəmiyyətindən danışıb.

Binəqədi Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Rauf Həsənov və Dövlət Təhlükəsizlik Xİdmətinin Binəqədi rayon İdarəsinin məsul əməkdaşı Namiq Hüseynov çıxışlarında ölkəmizdə dövlət-din münasibətlərinin sağlam təməllər üzərində qurulmasından, dözümlülük, tolerantlıq mədəniyyətinin inkişaf etdirilməsində dövlətin rolundan danışıblar. Radikalizm və ekstremizm, terrorizm və separatizmin cəmiyyətə vura biləcəyi fəsadlar və onlara qarşı mübarizədə aparılacaq ideoloji, maarifləndirici, profilaktik və preventiv metodlarla bağlı fikirlər dinlənilib. Tədbir çıxışlar ətrafında disskusiya ilə davam etdirilib.

# Binəqədidə TürkPA-nın mənzil-qərargahının açılış mərasimi olub

Dekabrın 22-də Binəqədi rayonunda Türkdilli Ölkələrin Parlament Assambleyasının (TürkPA) Beynəlxalq Katibliyinin mənzil-qərargahının rəsmi açılışı mərasimi olub.

Açılış mərasimində Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov, Türkiyə Böyük Millət Məclisinin sədri İsmayıl Qəhrəman, Qazaxıstan Parlamenti Məclisinin sədri Nurlan Niqmatulin və Qırğızıstan Joqorku Keneşinin sədri Çınıbay Tursunbekov iştirak edib.

Binanın rəmzi açılışını bildirən lent kəsildikdən sonra tədbir iştirakçıları mənzil-qərargahda yaradılan şəraitlə tanış olublar. Sonra tədbirdə TürkPA-nın fəaliyyətindən bəhs edən videoçarx nümayiş etdirilib.



# Tanınmış xeyriyyəçinin qəbirüstü abidəsində bərpa işləri tamamlanıb



Azərbaycanda genişmiqyaslı xeyriyyəçilik fəaliyyəti ilə məşğul olmuş, cəmiyyətin inkişafına xidmət etmiş tarixi şəxsiyyətlərə ulu öndər Heydər Əliyev hakimiyyətə gəldikdən sonra yenidən diqqət artırıldı. Bu gün də milli-mənəvi dəyərlər və vətənpərvərlik hisslərinə söykənən ənənələr ölkə rəhbərliyinin diqqət mərkəzindədir. Azərbaycanın ən böyük xeyriyyəçilərinin, tarixi şəxsiyyətlərinin abidələri mütəmadi olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları və tapşırıqlarına uyğun olaraq, əsaslı şəkildə təmir edilməkdədir.

Ölkə rəhbərliyinin Azərbaycanın tarixi şəxsiyyətlərinə verdiyi dəyərlər fonunda yerlərdə də bir sıra işlər görülməkdədir. Binəqədi rayonunun

Biləcəri qəsəbəsində dəfn edilən tanınmış azərbaycanlı milyonçu, neft hasilatçısı, xeyriyyəçi Ağa Musa Nağıyevin qəbirüstü abidəsində bərpa işləri tamamlandıqdan sonra ziyarət üçün açıq elan olunub.

Açıq havada təşkil olunan ziyarətdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsar İsmayılov, YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov, RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Rauf Həsənov, Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin baş məsləhətçisi Hacıbaba Babayev, icra hakimiyyəti başçısının Biləcəri qəsəbəsi üzrə nümayəndəsi İbad İbrahimov, Biləcəri qəsəbə bələdiyyəsinin sədri Hikmət Quliyev, Ağa Musa Nağıyev adına "Milli dəyərlərin qorunması" İctimai Birliyinin sədri, məşhur milyonçu-xeyriyyəçinin nəvəsi Dilarə Nağıyeva və həmin təşkilatın üzvləri, habelə abidənin müəllifi – tanınmış heykəltəraş Azad Əliyev, abidənin bərpa işlərinin tamamlanmasına dəstək göstərən xeyriyyəçi insanlar və qəsəbə sakinləri iştirak ediblər.

Tanınmış xeyriyyəçinin ruhuna dua oxunması ilə başlayan mərasimdə çıxış edən Vüsar İsmayılov tədbirin mahiyyəti və Ağa Musa Nağıyevin Azərbaycan üçün gördüyü xeyirxah əməllərindən danışıb. Qeyd olunub ki, xalqımız hər zaman öz millətinə, xalqına xidmət edən oğullarının xatirəsini daim yaşatmalı, onların faydalı əməllərini gənc nəsillərə təbliğ etməlidir.

Çıxış edənlər abidənin abadlaşdırılmasında əməyi olan bütün şəxslərə minnətdarlıqlarını ifadə ediblər. Tədbir zamanı müvafiq fəaliyyətlə bağlı əməyi olan şəxslər Ağa Musa Nağıyev adına "Milli dəyərlərin qorunması" İctimai Birliyinin təsis etdiyi Fəxri fərmanla təltif olunublar.

Abidənin açılışı zamanı gülqoyma mərasimi ilə davam edən tədbirin sonunda xatirə şəkilləri çəkdirilib.

Xatırladaq ki, Ağa Musa Nağıyev 1848-ci ildə Bakı quberniyasının Biləcəri kəndində anadan olmuşdur. 28 May küçəsindəki qoşa imarətlər, yenə həmin küçədə qırmızı kərpicdən tikilmiş əzəmətli bina, Nizami küçəsində Opera Teatrının yanındakı yaşayış evi, Azərbaycan prospektində köhnə Mərkəzi poçt binası, Nigar Rəfibəyli küçəsindəki əzəmətli yaşayış binası, Səməd Vurğun küçəsində Qış klubu (indiki Zabitlər evi), "Astoriya" və "Yeni Avropa" mehmanxanaları və sair bu kimi şəhərin gözəgəlimli binaları məhz Ağa Musa Nağıyevin vəsaiti hesabına tikilmişdir.

Məşhur milyonçu 1919-cu ilin mart ayında vəfat etmiş və doğulduğu Biləcəri kəndində dəfn olunmuşdur.




# "Tolerantlıq, Multikulturallıq, Həmrəylik!"

Azərbaycan Prezidentinin 2016-cı il 11 mart tarixli sərəncamı ilə təsdiq edilmiş 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" çərçivəsində Binəqədi rayon orta ümumtəhsil məktəblərində "Tolerantlıq, Multikulturallıq, Həmrəylik!" adlı yaradıcılıq müsabiqəsi təşkil olunub.

Müsabiqə Binəqədi Rayon İcra Hakimiyyəti, YAP Binəqədi rayon təşkilatı, rayon Gənclər və İdman İdarəsi tərəfindən təsdiq edilmiş əsasnaməyə uyğun olaraq keçirilir.

Müsabiqə çərçivəsində rayon ərazisində fəaliyyət göstərən 144, 3, 83, 99, 115, 179, 182, 205, 244, 246, 248, 283 və 314 nömrəli tam orta məktəblərdə tədbirlər keçirilib. Müsabiqədə münsiflər heyətinin, müəllim və şagirdlərin "Multikulturalizm və tolerantlıq" haqqında çıxışları dinlənilib. Çıxışlarda qeyd olunub ki, əsrlər boyu Azərbaycan müxtəlif millətlərin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma şəraitində yaşadığı ölkə kimi tanınıb, bu gün də ölkədə tolerantlıq prinsiplərinə əsaslanan siyasət aparılır. Sonra məktəblilər müxtəlif dillərdə şeirlər söyləyib, mahnılar oxuyub, rəqslər nümayiş etdiriblər. Münsiflər heyəti tərəfindən çıxışlara baxılıb və qiymətlər verilib.



# Ötən ilə bir nəzər...

## Əldə olunan nailiyyətlər gələcək uğurlara vəsilədir



**2016-cı ilin başa çatmasına sayılı günlər qalır. Ötən bir il ərzində ölkəmizin hər yerində olduğu kimi, Binəqədi rayonunda da sosial, iqtisadi, təhsil və digər sahələrdə uğurlar qeydə alınıb. Paytaxt Bakının qədim yaşayış məskənlərindən olan, əməksevər insanları sayəsində daim tərəqqi edən, neft-qaz sənayesində zəngin ənənələr formalaşdıran Binəqədi rayonu bu gün inkişafının keyfiyyətcə yeni mərhələsini yaşayır. Rayonun böyük tərəqqi və inkişaf yolu keçməsi, abadlıq-quruculuq və yenidənqurma sahəsində ciddi uğurlara imza atması, ilk növbədə, Prezident İlham Əliyevin dəstəyi, diqqət və qayğısı nəticəsində mümkün olub. Dövlətimizin başçısı dəfələrlə Binəqədi rayonu ərazisində görülən işlərlə yerindəcə tanış olub, bir sıra obyektlərin açılışında iştirak edib, dəyərli tapşırıq və tövsiyələrini verib. Təbii ki, bu səfərlər Binəqədi rayonu ilə bağlı strateji planların, layihələrin reallaşdırılmasına yüksək səviyyəli əməli dəstək deməkdir. Təkcə bu il Binəqədi rayonuna 3 dəfə səfər edən Prezident İlham Əliyev aprelin 19-da Binəqədi rayonunda inşa olunan "Azəravtoyol" ASC-nin yeni inzibati binasının, Bakı Metropoliteninin yeni – bənövşəyi xəttinin "Avtovağzal" və "Memar Əcəmi" stansiyalarının, sentyabrın 14-də isə 9 nömrəli Bakı Peşə Liseyinin bazasında yaradılmış IT STEP Akademiyasının əsaslı təmirdən sonra açılışında iştirak edib.**

### Sosial layihələrin reallaşdırılması əsas prioritetlərdəndir

Aparılan ardıcıl quruculuq işlərinin nəticəsidir ki, bu gün Binəqədi rayonu paytaxtın ən gözəl məkanlarından birinə çevrilib. Rayonun, demək olar ki, bütün ərazilərində yeni park və meydanların, abad məhəllələrin yaradılması, müasir sosial obyektlərin tikintisi, yaşıllıqların salınması binəqədililərin, ümumilikdə isə paytaxt sakinlərinin ən çox sevdikləri məkanlardan birinə çevrilib.

Rayonun ən böyük prospektləri hesab olunan Azadlıq və Ziya Bünyadov prospektləri boyunca yerləşən çoxmənzilli yaşayış binalarının əksəriyyəti, yaxşı mənada, tanınmaz hala gətirilib. Rayon ərazisində aparılan abadlıq-quruculuq işlərinin davamı olaraq, Azadlıq prospektində yaşıllıq zolaqları salınıb, gül və dekorativ kollar əkilib, milli ornamentlərə uyğun mənzərələr yaradılıb, işıqlandırma sistemi yenidən qurulub. Ərazidə yerləşən





binaların qarşısında istirahət guşələri, uşaqlar üçün əyləncə qurğuları quraşdırılıb. Sakinlərin məmnunluğunun, rahatlığının təmin edilməsi məqsədilə "Abad məhəllə" çərçivəsində yenidənqurma işləri həyata keçirilib.

### Multikulturalizm və milli-mənəvi dəyərlərə hörmət

Dövlət başçısının 2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsi ilə bağlı imzaladığı sərəncama əsasən, Binəqədi rayonunda bu istiqamətdə bir sıra işlər görülüb. Rayonda fəaliyyət göstərən tam orta məktəblərin yuxarı sinif şagirdlərinin və həmin məktəblərdə ictimai fənləri tədris edən müəllimlərin iştirakı ilə "Multikulturalizmin Azərbaycan modeli", "Tolerantlıq nümunəsi – Azərbaycan" adlı layihələr həyata keçirilib. "Multikulturalizmi həyat tərzi kimi öyrən, araşdır, paylaş" mövzusunda təşkil olunan qış məktəbi də bu qəbildən keçirilən tədbirlərdəndir. Layihə çərçivəsində dünyanın müxtəlif ölkələrindən gələn nümayəndələr rayonun görməli yerlərinə səfər edib, milli mədəniyyətimiz, mətbəximizlə tanış olublar.

Prezident İlham Əliyevin tapşırığına əsasən, ölkəmizin tarixinin, mədəniyyətinin, adət-ənənələrinin, müstəqillik illərində əldə olunmuş nailiyyətlərin dərindən öyrənilməsi məqsədilə məktəblilərin respublikamızın bir sıra bölgələrinə səyahəti təşkil edilib. Yeniyetmə və gənclərin vətənpərvərlik tərbiyəsinin daha da yüksəldilməsində, dünyagörüşünün formalaşmasında mühüm rol oynayan "Ölkəmizi tanıyaq" devizi altında iki mərhələdə keçirilən maarifləndirici tur-aksiya çərçivəsində Naxçıvana və cənub bölgəsinə ekskursiya binəqədili məktəbliləri tərəfindən böyük sevinc və coşqu ilə qarşılanıb.

### Gənclərə göstərilən dövlət qayğısı Binəqədidə də öz əksini tapıb

Əhalinin əsas hissəsini təşkil edən gənclər rayonun mədəni, sosial-iqtisadi həyatında fəallıq göstərirlər. Təsadüfi deyil ki, Binəqədidə mütəmadi olaraq gənclərlə bağlı müxtəlif mövzularda konfrans, iclas və görüşlər təşkil olunur, onlara vətənpərvərlik, azərbaycançılıq, dövlətçilik prinsipləri, milli-mənəvi dəyərlər aşılanır. Məhz bunun nəticəsidir ki, Binəqədi gəncləri müasir, intellektual, vətənpərvər ruhda yetişir, dövlətimizin iqtisadi və siyasi qüdrətinin inkişafında əllərindən gələni əsirgəmirlər. Yeniyetmə və gənclərin vətənə sədaqət ruhunda tərbiyələndirilməsi, milli adət-ənənələrimizin aşılanması ölkə rəhbərliyinin diqqətində olan əsas məsələlərdəndir. Gənclərin potensialının yüksəldilməsi, onların ölkənin sosial həyatında fəaliyyətinin daha da artırılması məqsədilə rayonda müxtəlif səpkili layihə və tədbirlər həyata keçirilir.

"ASAN xidmət" mərkəzinin "ASAN School" könüllülük proqramı yerli icra hakimiyyəti orqanları arasında ilk dəfə Binəqədi Rayon İcra Hakimiyyətində həyata keçirilməyə başlanıb. Proqram çərçivəsində RİH-də təcrübə keçən "ASAN könüllüləri" burada müasir idarəetmə üsulları ilə tanış olmaq, müxtəlif tədbirlərin, layihələrin təşkilatçılığı işində iştirak etmək və təcrübə əldə etmək imkanı qazanıblar. Hazırda "ASAN könüllüləri"nin növbəti qrupunun təcrübə müddəti davam edir.

Son illər gənclərin ölkənin mədəni, ictimai-siyasi, iqtisadi həyatında fəallığının artması ortaya qoyulan konsepsiyanın müvəffəqiyyətlə icrasının göstəricisidir. Gənclər artıq müşahidəçi qismindən birbaşa proseslərin iştirakçısına çevriliblər. Cari il sentyabrın 26-da baş tutmuş ümumxalq səsverməsində bu hal özünü daha bariz şəkildə büruzə




verib. Səsvermə günü yüzlərlə binəqədili gənc seçki məntəqələrinə gələrək ölkə Konstitusiyasına təklif olunan əlavə və dəyişikliklərə öz münasibətlərini bildiriblər. Bununla yanaşı, gənclərimiz təbliğat-təşviqat kampaniyasının gedişi zamanı da yüksək aktivlik nümayiş etdiriblər. Səsvermə günü yüzlərlə gənc ilk dəfə bu hüquqdan istifadə edib. Demokratik və şəffaf şəraitdə keçirilən referendumda gənclərimizin fəallığı bir daha onların siyasi aktivliyindən xəbər verir.

### Şəhid ailələrinə diqqət və qayğı

Vətənpərvər insan öz torpağını, dilini, tarixini sevən kəsdir! Vətənpərvər gənclər Ana vətənin keşiyində layiqincə dayananlardır! Torpaqlarımız uğrunda aparılan ədalətli savaşda xalqımız minlərlə övladını itirib. Bu itkini, sadəcə, "ölüm" kəlməsi ilə ifadə etmək mümkün deyil: torpaqlarımız uğrunda canlarını fəda edənlər müqəddəs şəhidlik zirvəsinə yüksəliblər!

Binəqədi rayonunda, bütün ölkədə olduğu kimi, şəhidlərin ruhuna hörmət, onların ailə üzvlərinə göstərilən diqqət və qayğı daim prioritet sahələrdən olub. Xalqımız öz qəhrəman övladlarını heç zaman unutmur, onların müqəddəs ruhu qarşısında baş əyir. Aprel döyüşlərində qoşunların təmas xəttində şəhid olmuş vətənpərvər oğullar arasında Binəqədi sakinləri – Emin Bağırov, Cabbarxan Hacıağayev, Mahir Mirzəyev, Fəxrəddin Qurbanlı vardı. Şəhidlərimizin dəfn mərasimində rayon rəhbərliyi, millət vəkilləri, Müdafiə Nazirliyinin nümayəndələri, hüquq-mühafizə orqanlarının, müəssisə və təşkilatların, şəhidlərimizin təhsil aldığı orta məktəbin kollektivləri, ictimai birliklər, gənclər və rayon sakinləri yaxından iştirak ediblər. Aprel döyüşlərində şəhid olmuş qəhrəmanlarla bağlı Binəqədi rayonunda bu gün də mütəmadi olaraq silsilə tədbirlər təşkil olunur. Gənclər, orta məktəb şagirdləri onların məzarlarını ziyarət edir, ailələrinə baş çəkirlər. Bu ilin avqust ayında Beynəlxalq Gənclər Günü münasibətilə aprel döyüşlərində şəhid olmuş Azərbaycan Ordusunun əsgərləri Fəxrəddin Qurbanlı və Emin Bağırovun məzarları ziyarət olunub, önünə əklil qoyulub. Sonra gənclər şəhidlərin ailələrini ziyarət edərək övladlarının göstərdikləri qəhrəmanlıqlar üçün onlara dərin minnətdarlıqlarını bildiriblər. Aprel döyüşlərində qəhrəmancasına şəhid olan Fəxrəddin Qurbanlının anasının doğum günü münasibətilə "ASAN könüllüləri", rayon gəncləri, bələdiyyə



və icra nümayəndələri, "Rio-2016" Yay Olimpiya Oyunlarının gümüş medalçısı, cüdoçu Rüstəm Orucov və 86 saylı uşaq bağçasının balaca fidanları şəhidin evinə gedərək anasını təbrik edib, belə bir övlad böyütdüyü üçün ona təşəkkürlərini bildiriblər. Balaca fidanlar isə şeir töhfələri ilə təbriklərini çatdırıblar.

### Təhsildə uğurlar

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş "Təhsil islahatı proqramı" bu gün Prezident İlham Əliyevin imzaladığı müvafiq fərman və sərəncamlar, həyata keçirilən proqramlar vasitəsilə uğurla davam etdirilir. Məhz görülən işlərin nəticəsidir ki, hazırda ölkədə təhsil sisteminin inkişafı geniş vüsət alıb.

2015-2016-cı tədris ilində Binəqədi rayon orta ümumtəhsil məktəblərini 2441 şagird bitirib. Bu il rayonun orta məktəblərini bitirən məzunlardan 1354-ü ali təhsil ocaqlarına qəbul olunub. 600 və 600-dən yuxarı bal toplayanların sayı əvvəlki illərə nisbətdə yüksələrək 90 nəfərə çatıb. Ali məktəblərə ən çox – 600-dən yuxarı bal toplayaraq qəbul olunan abituriyentlərin sayına görə aşağıdakı məktəblər öndədir: 83 nömrəli məktəb-lisey – 9 nəfər, 297 nömrəli tam orta məktəb – 9 nəfər, 244 nömrəli tam orta məktəb – 8 nəfər. 600-dən yuxarı bal toplayan məzunlardan 56-sı qız, 34-ü isə oğlandır.

Sevindirici haldır ki, son illər ümumtəhsil məktəblərinin birinci siniflərində şagird qəbulunun sayında da artım müşahidə edilib. Rayon ərazisində fəaliyyət göstərən 34 bağçadan 27-si körpələr evi-uşaq bağçasıdır. Məktəbəqədər təhsil müəssisələrində 1290 nəfər çalışır, onların da 596 nəfəri pedaqoji işçilərdir. Onu da qeyd edək ki, 2015-ci ildə rayonda əsaslı təmir olunmuş 40 və 238 saylı körpələr evi-uşaq bağçalarının hər birində 6 qrup iyun ayından fəaliyyət göstərirlər.

Rayondakı təhsil müəssisələrində "Ümummilli lider Heydər Əliyev irsinin öyrənilməsi və təbliği" prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirilib. Bununla bağlı rayon məktəblərində "Yeni Azərbaycan Partiyası və Heydər Əliyev məfkurəsi" mövzusunda silsilə tədbirlər təşkil olunub. Ümumilikdə rayonun 32 orta ümumtəhsil müəssisəsini əhatə edən tədbir çərçivəsində 8 görüşdə 1250 nəfər şagirdin iştirakı təmin edilib. Heydər Əliyev Mərkəzinə ekskursiyalar, bir qrup gəncin "Heydər zirvəsi"nə yürüşü və s. tədbirlər ümummilli liderin ideyalarının bu gün də əbədiyaşarlığının bariz nümunəsidir.

### Sağlam həyat, sağlam gələcək...

Binəqədi rayon ərazisində 25 səhiyyə müəssisəsi fəaliyyət göstərir. Ölkə başçısının tapşırığına uyğun olaraq, əhali mütəmadi olaraq tibbi müayinədən keçirilir. Hər il təşkil olunan bu humanitar aksiyanın yüksək səviyyədə keçirilməsinin təmin edilməsi məqsədilə yerli icra və bələdiyyə orqanlarının, müvafiq dövlət qurumlarının rəhbərləri, habelə müayinənin keçiriləcəyi tibb müəssisələrinin personalı cəlb olunurlar. Tibbi-proflaktik müayinənin keçirilməsi nəzərdə tutulan səhiyyə ocaqlarında hərtərəfli şərait yaradılır və müəyyən olunmuş müddət ərzində rayon sakinlərinin böyük əksəriyyəti bu humanitar aksiyadan yararlanır.

"Birgə yaradaq" layihəsi çərçivəsində rayonun orta ümumtəhsil müəssisələrinin şağirdləri üçün "Sağlam gələcək" adlı silsilə tədbirlər keçirilib. "Azercell Telekom" MMC, "Xəzər" qayğıkeşlik layihəsi humanitar təşkilatının təşəbbüsü ilə təhsil müəssisələrində səyyar müayinələrin təşkil edilməsi məqsədilə "Daha yaxşı görək" layihəsi baş tutub. Layihə çərçivəsində Binəqədi rayonunda yerləşən tam orta məktəblərin şagirdləri arasında səyyar oftalmoloq-həkimlər tərəfindən müayinə aparılıb.

### Görülən və görüləcək işlər...

"Bakı şəhəri Binəqədi və Qaradağ rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər barədə" Nazirlər Kabinetinin bu ilin yanvarında verilmiş qərarı Binəqədi rayonunda uğurla icra edilməkdədir. Qərara əsasən, adıçəkilən rayonlarda 5 il müddətinə bir sıra tədbirlər, o cümlədən mülki, mənzil, şəhərsalma və tikinti qanunvericiliklərinin tələblərinə əməl etməklə şəhərin ümumi görünüşünə xələl gətirən, qəzalı vəziyyətdə olan və mövcud şəhərsalma normalarına cavab verməyən yaşayış evlərinin sökülməsi nəzərdə tutulub. Binəqədi rayonu üzrə 1247 ailənin yaşadığı 49 çoxmənzilli yaşayış binasının, həmçinin Biləcəri bələdiyyəsi ərazisində yeraltı qaz sızması aşkar olunmuş zonadakı 166 fərdi yaşayış evinin sökülməsi planlaşdırılıb. Sökülməsi nəzərdə tutulan 49 çoxmənzilli bina rayonun müxtəlif ərazilərində yerləşir. Hazırda M.Ə.Rəsulzadə qəsəbəsində yaşı yüzü keçmiş xeyli tikili var. Qəzalı vəziyyətdə olması üzündən, həmin tikililərdə təmir-bərpa və abadlıq işlərinin aparılması, demək olar ki, qeyri-mümkündür. Nazirlər Kabinetinin qərarının icrasını təmin etmək məqsədilə bu il yanvarın 27-də Binəqədi Rayon İcra Hakimiyyətində müvafiq komissiya yaradılıb və qurum davamlı olaraq hər ay qəzalı vəziyyətdə olan binalarda yaşayan sakinlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı görülmüş tədbirlər barədə yuxarı təşkilatlara hesabat verir. Qəzalı vəziyyətdə olan binalarda tikinti işlərini müvafiq tikinti şirkətləri həyata keçirir. Bununla əlaqədar adı çəkilən şirkətlərlə rayon icra hakimiyyəti arasında müvafiq qaydada müqavilə bağlanılıb. Müqaviləyə əsasən, Azadlıq prospekti ilə Z.Qəmbərov küçəsinin kəsişməsində yerləşən 5, 7, 9, 10, 12 saylı qəzalı vəziyyətdə olan binaların sökülərək yerində yeni binaların tikilməsi nəzərdə tutulub. Tikintiyə hazırlıq işləri ilə əlaqədar sahədə müvəqqəti ofis binası da inşa edilib. Yeni tikiləcək bina üçün torpaqbərkitmə, metal şpuntların vurulması işləri başa çatdırılıb, tikinti ərazisi müvəqqəti kommunikasiya (elektrik, su və kanalizasiya) xətləri ilə təmin olunub. Hazırda tikinti işləri davam etdirilir.

# Qış mövsümü ilə əlaqədar qabaqlayıcı tədbirlər həyata keçirilir



Son vaxtlar paytaxtda havaların qarlı-şaxtalı keçməsi Binəqədi rayonunda da bir sıra problemlər yaratsa da, rayon rəhbərliyinin məsələyə vaxtında müdaxiləsi çətinliklərin tezliklə aradan qaldırılmasına səbəb olub.

Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Təsərrüfat şöbəsindən əməkdaşımıza bildirilib ki, qış mövsümü ilə bağlı rayon ərazisində görüləcək işlər xüsusi diqqət mərkəzindədir. Məlumatda qeyd edilib ki, 2016-2017-cı illərin payız-qış mövsümündə rayonun küçə, səki, məhəllədaxili ərazi və yollarının qardan vaxtında təmizlənməsi, ictimai nəqliyyatın hərəkətinin nizamlanması, qaz, su, istilik və elektrik enerjisi ilə təchiz edilməsi tədbirləri haqqında" Binəqədi Rayon İcra Hakimiyyəti başçısının məlum sərəncamından irəli gələn vəzifələrin icrası ilə bağlı xidməti ərazilər üzrə mövcud infrastruktura nəzarət məqsədilə monitorinqlər davam etdirilir və mövcud problemlər aradan qaldırılır. Bu günlərdə isə bəzi mənzil-kommunal istismar sahələrinin xidməti ərazilərində yerləşən qazanxanalara növbəti reydlər keçirilib.

Ötən həftə qışa hazırlıqla bağlı Binəqədi Rayon Mənzil Kommunal Təsərrüfat Birliyində növbəti toplantı olub, havaların soyuması və yağan qar nəticəsində yaranmış vəziyyətin aradan qaldırılması istiqamətində tədbirlər müəyyənləşdirilib. Qeyd olunub ki, Binəqədi rayonu, ümumilikdə, qışı hazırlıqlı qarşılayıb. Qartəmizləyən maşınlar alınıb, su gölməçələrinin qurudulması və sair problemlərin həlli üçün istifadə olunacaq texniki qurğular saz vəziyyətə gətirilib. Hazırda birlik gücləndirilmiş iş rejimində çalışır. İnzibati binalar, məktəblərin və uşaq bağçalarının, yaşayış evlərinin istiliklə təmin olunmasında əvvəllər mövcud olan problemlər aradan qaldırılır. Ərazidən zibilin daşınmasına xüsusi diqqət yetirilir. Hər gün birliyə məxsus olan xüsusi təyinatlı maşınlar yaşayış massivlərində yığılmış məişət tullantılarını müəyyən edilmiş qrafik üzrə Balaxanı poliqonuna daşıyır. Bundan başqa, əvvəlki illərdən fərqli olaraq, bu il çoxmənzilli binaların istiliklə təchizatı xeyli yaxşılaşıb. Bəzi yaşayış binalarında bu sahədə ortaya çıxan çətinliklər operativ şəkildə aradan qaldırılır. Doğrudur, havaların soyuq keçməsi bu sahədə şikayətlərin bir qədər çoxalmasına səbəb olsa da, birliyin rəhbərliyi nöqsanların aradan qaldırılması üçün bütün imkanlardan maksimum istifadə etməyə çalışır.

Sonda əlavə edək ki, görülmüş işlərə baxmayaraq, son günlər rayona qazın fasilələrlə verilməsi müəyyən problemlərə yol acıb. Belə ki, qazın olmaması mənzillərə və təhsil müəssisələrinə istiliyin verilməsində çətinliklər yaradıb. Sakinlərin Müraciəti Xidməti – 1646-dan əldə etdiyimiz məlumata görə, rayona təbii qazın fasilələrlə verilməsi ilə bağlı quruma müraciət edənlərin sayı artıb.

# Şikayət xarakterli müraciətlərin sayı azalıb




Binəqədi Rayon İcra Hakimiyyətində vətəndaşların sorğu və şikayət xarakterli müraciətlərinin qəbulu, habelə operativ şəkildə araşdırılaraq cavablandırılması məqsədilə yaradılmış "Sakinlərin Müraciəti Xidməti – 1646" (SMX) fəaliyyətə başladığı dövrdən indiyədək əhalinin etimad ünvanına çevrilmişdir. Respublikada rayon icra hakimiyyətlər arasında ilk dəfə təşkil edilmiş bu xidmət sayəsində vətəndaşlar heç bir yerə getmədən, sadəcə bir zənglə üzləşdikləri problemlərin operativ şəkildə həllinə nail ola bilirlər. Aparılan təhlillər onu göstərir ki, "Sakinlərin Müraciət Xidməti"nin fəal işi sayəsində rayon sakinləri tərəfindən yuxarı orqanlara edilən şikayət və müraciətlərin sayı yarıbayarı azalmışdır. Bütün bunlar qurumun yüksək keyfiyyətli xidmətlər göstərməklə əhalinin rəğbətini qazanması ilə bağlıdır .

Xidmətin rəisi Anar Səfərov bizimlə söhbətində "1646" telefon nömrəsinə daxil olan müraciətlərin günü-gündən artdığını da diqqətə çatdırdı: "Bu isə ondan xəbər verir ki, vətəndaşlar bizə daha çox güvənirlər. Təhlillər göstərir ki, bəzi sahələr üzrə şikayətlər mövsümdən asılı olaraq artıb-azala bilir. Məsələn, payız-qış aylarında qaz və mənzillərin istiliklə təmin edilməsi ilə bağlı şikayətlər çoxluq təşkil edir. 2016-cı ilin yanvar-noyabr ayları üzrə Binəqədi Rayon İcra Hakimiyyətində sakinlərin qarşılaşdıqları problemlərin statistik rəqəmlərini əks etdirən göstəricilər təhlil edilərkən müəyyən olunub ki, SMX-da cavablandırılan zənglərin sayı 36.818 (2015-ci ilin analoji dövrü ilə müqayisədə 10.260 vahid çox), birbaşa cavablandırılan zənglərin sayı 29.163 (2015-ci ilin analoji dövrü ilə müqayisədə 8946 vahid çox), tərtib edilmiş şikayət vərəqələrinin sayı isə 7655 (2015-ci ilin analoji dövrü ilə müqayisədə 1314 vahid çox) olmuşdur. Şikayət xarakterli müraciətlərin 7655-nin icrası təmin edilmiş, o cümlədən 6115-i və ya 79,9 faizi tam həll olunmuş, 695-i və ya 9,1 faizi qismən həll edilmiş, 845-i və ya 11 faizi müvafiq izahat verilərək həllini tapmışdır.

Hesabat dövründə daxil olmuş şikayətlərin sahələr üzrə bölgüsünə gəldikdə isə müraciətlərin 2896-sı və ya 37,8 faizi su-kanalizasiya (2015-ci ilin analoji dövrü ilə müqayisədə 99 vahid az), 2852-si və ya 37,4 faizi qaz təchizatı (2015-ci ilin analoji dövrü ilə müqayisədə 1695 vahid çox), 654-ü və ya 8,5 faizi lift problemləri (2015-ci ilin analoji dövrü ilə müqayisədə 28 vahid az), 438 -i və ya 5,7 faizi istilik təchizatı (2015-ci ilin analoji dövrü ilə müqayisədə 88 vahid çox), 383-ü və ya 5 faizi sakinləri narahat edən digər məsələlər (2015-ci ilin analoji dövrü ilə müqayisədə 160 vahid az), 205-i və ya 2,7 faizi elektrik təchizatı ilə bağlı (2015-ci ilin analoji dövrü ilə müqayisədə 153 vahid az), 89-u və ya 1,2 faizi zibil və tullantılar ilə əlaqədar (2015-ci ilin analoji dövrü ilə müqayisədə 35 vahid az), 75-i və ya 0,9 faizi küçələrin işıqlandırılması idarəsi (2015-ci ilin analoji dövrü ilə müqayisədə 6 vahid çox),63-ü və ya 0,8 faizi yaşıllaşdırma idarəsi (2015-ci ilin analoji dövrü ilə müqayisədə heç bir dəyişiklik olmayıb) ilə əlaqədar olmuşdur.

# Dövlət rəmzlərinə hörmətlə yanaşmaq hər bir gəncin borcudur



Azərbaycan xalqı dünyanın ən mədəni və zəngin mənəvi dəyərlərə malik xalqlarındandır. Şərq aləmində ilk opera, ilk teatr, ilk balet və ən əsası, ilk demokratik, dünyəvi cümhuriyyət məhz Azərbaycanda yaradılıb. Ölkəmizdə islami dəyərlər və bəşər sivilizasiyasının müasir nailiyyətləri sistemli şəkildə öz təcəssümünü tapıb. Şübhəsiz, bu sistemin dağılması istənilən formada cəmiyyət və dövlət həyatı üçün müəyyən fəsadlar doğura bilər. Bunların baş verməməsi üçün Azərbaycan dövləti ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirir.

Cəmiyyətin mənəvi cəhətdən aşınmasının qarşısının alınması üçün dövlət səviyyəsində gənclər arasında milli mədəniyyətin təbliği, qorunması və inkişafı istiqamətində silsilə tədbirlər həyata keçirilir. Bu sahədə maarifləndirici rol oynayan, vətənpərvərlik ideyalarına geniş yer verilən ədəbiyyat, mədəniyyət və incəsənət əsərləri təbliğ edilir və müasir metodlarla yayılır. Milli vətənpərvərlik hisslərini təbliğ edən kinofilmlər, seriallar, sənədli filmlər, cizgi filmlərinin çəkilişi diqqət mərkəzində saxlanılır.

Paytaxtın Binəqədi rayonunda da gənclər arasında vətənpərvərlik hisslərinin, milli dəyərlərin təbliğinə xüsusi diqqətlə yanaşılır və bu istiqamətdə silsilə tədbirlər həyata keçirilir. 283 saylı tam orta məktəbin direktoru Tünzalə Zeynalovanın fikrincə, dövlət dili milli birliyin təmin olunmasında əsas amillərdən biridir: "Müstəqilliyimizin bərpasından əvvəl cəmiyyətdə, hətta dövlət orqanlarında Azərbaycan Respublikasının dövlət dilini bilməyən, yaxud ondan istifadə etməyi bacarmayan insanlar var idi. Müstəqillikdən sonra dilimizin təmizliyi məsələsi ön plana çəkildi. Ümummilli lider Heydər Əliyev bu sahədə böyük işlər görən dahi şəxsiyyətlərdən biridir. Məhz onun bu məsələ ilə bağlı ayrı-ayrı çıxışlarında söylədiyi fikirlər olduqca ibrətamizdir. Ulu öndər türk dünyası yazıçılarının III qurultayındakı tarixi nitqində (6 noyabr, 1996-cı il) yazıçı, şair və söz sərraflarının mənəvi sərvətlərimizin, dilimizin qorunmasında, onların təbliğindəki xidmətlərinə böyük qiymət verərək demişdir: "Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini, mədəniyyətini yaşadan, inkişaf etdirən amillərdən biri də məhz onun dilidir. Dilimizi yaşadan, zənginləşdirən və inkişaf etdirən şair və yazıçılarımız olmuşdur. Biz, adətən, böyük tariximiz haqqında, xalqımızın böyük mədəniyyəti haqqında danışarkən, birinci növbədə, onların yaratdıqları bədii əsərlərə, şairlərimizin, yazıçılarımızın əsərlərinə istinad edir, bunları nümunə gətirir və təbliğ edərək, eyni zamanda, öz tariximizi, mədəniyyətimizi təbliğ edirik". Heydər Əliyevin Azərbaycan dilinin qorunması və inkişafı istiqamətində ən böyük xidmətlərindən biri də dilimizə dövlət dili statusunun verilməsidir. Ulu öndərin Azərbaycan dili və əlifbası, xalqımızın mənəvi dəyərləri ilə bağlı imzaladığı tarixi fərman və sərəncamlar bu istiqamətdə olduqca əhəmiyyətli işlərin görülməsinə imkan yaratmışdır".

Təcrübəli pedaqoq Sənubər Məmmədova isə hesab edir ki, tədris vəsaitlərinin mədəni və mənəvi dəyərləri təbliğ edən elementlərlə zənginləşdirilməsi çox vacibdir: "Hazırda milli xüsusiyyətləri və sosial hadisələri əks etdirən dərsliklər yüksək ixtisaslı və vətənpərvər mütəxəssislər tərəfindən Azərbaycan Respublikasının Konstitusiyasına və milli-mənəvi dəyərlərimizə uyğun şəkildə tərtib olunur. Bu dərsliklər müvafiq dövlət və ictimai strukturların ekspertizasından keçdikdən sonra tədrisə buraxılır. Məktəblilərə milli ruh aşılayan dərsliklər təhsil müəssisələrində, KİV-lərdə geniş müzakirə edilir. Ömrünü xalqının maariflənməsi, Vətəninin azadlığı uğrunda mübarizəyə həsr etmiş nümunəvi ziyalıların və dövlət xadimlərinin həyat və fəaliyyətləri dərsliklərdə geniş işıqlandırılır, gənclərimiz bu insanlardan nümunə götürürlər. Həmçinin qəhrəmanların, Vətənin azadlığı və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş fədakar insanların, şəhidlərin və Qarabağ müharibəsi veteranlarının şücaətlərindən də geniş bəhs edilir. Fikrimcə, gənclərin təlim və tərbiyəsi ilə məşğul olan pedaqoji heyətin vətənpərvərlik keyfiyyətləri yüksək olmalıdır. Çünki müəllim heyəti şagird və tələbələr üçün nümunə rolunu oynayır. Pedaqoqların bu sahədə məqbul biliklərə malik olması və gördüyü işə vicdanla yanaşması mühüm şərtlərdəndir. Bu məqsədlə müəllimlərə vətənpərvərlik və dövlətçilik mövzularında xüsusi treninq və kurslar keçirilir, onlar mütəmadi olaraq bu istiqamətdə attestasiya edilirlər. Bu sahədə ixtisaslaşmış pedaqoji kadrların hazırlanması da zəruridir. Bütün bu sadalananlar şagirdlərin vətənpərvərlik tərbiyəsində, onların milli mənlik şüurunun inkişafında əvəzsiz rol oynayır".

Qabaqcıl təhsil işçisi Xatirə Xudiyevanın sözlərinə görə, şagirdlərdə Azərbaycan Respublikasının dövlət rəmzlərinə hörmətin aşılanması vacib məsələlərdəndir: "Dövlət rəmzlərinin təbliği və tətbiqi istiqamətində həyata keçirilən dövlət siyasətinin bir hissəsi də gənc nəslin rəmzlərə ehtiramla yanaşmasını təmin etməkdir. Dövlət rəmzləri millətin mədəni emblemlərinin kompleksidir. Onlardan düzgün istifadə edilməsi əhalidə, o cümlədən gənclərdə şəxsi özünüdərkin və ictimailəşmə hisslərinin formalaşmasına kömək edir. Dövlət rəmzlərinin təbliği müxtəlif səviyyələrdə – konfransların, seminarların, əhalinin iştirakı ilə kütləvi tədbirlərin təşkili yolu ilə həyata keçirilə bilər. Kütləvi tədbirlərdə və digər hallarda Dövlət himni çalınarkən hər kəsin bir nəfər kimi ayaqüstə himnimizi ifa etməsi vətənpərvərlik hisslərindən doğur".

Xatirə müəllimənin fikrincə, Azərbaycan Respublikasının Dövlət bayrağının, himninin və gerbinin mənşəyinin elmi səviyyədə araşdırılması, əhalinin müxtəlif sosial qruplarına dövlət rəmzlərinin mənasının izah olunması, bununla bağlı sosioloji tədqiqatların aparılması vacibdir: "Dövlət rəmzləri sadəcə nümayiş xarakteri daşımır. Onlar tarixi dövrlərdə yaranmaqla yanaşı, müəyyən ideoloji zəminlərə də malikdir. Respublikamızda həyata keçirilən müxtəlif tədbirlər vasitəsilə uşaqlar, yeniyetmə və gənclər dövlət rəmzlərinin əhəmiyyəti barədə məlumatlandırılırlar. Kütləvi informasiya vasitələrində, dərsliklərdə, kitablarda, digər nəşrlərdə, sənədli filmlərdə, milli internet məkanında dövlət rəmzlərindən geniş istifadə edilir, onların təbliği işi aparılır. Gəncləri maraqlandıran məmulatlarda, geyimlərdə milli rəmzlərin əks etdirilməsi də xüsusi əhəmiyyət kəsb edir. Bu amillər gənc nəslin doğma Vətəninə, onun dövlət atributlarına sevgisini artırır. Şübhəsiz, Dövlət bayrağına, himninə hörmət edən hər bir gəncin ürəyində həm də Vətən sevgisi yaşayır".

# Binəqədidə "Xalçaçılıq sənətini yaşat və təbliğ et" layihəsinə start verilib



Binəqədi Rayon İcra Hakimiyyəti, rayon Gənclər və İdman İdarəsi, habelə Azərbaycan Xalça Muzeyinin birgə təşkilatçılığı ilə Gənclər Evində "Xalçaçılıq sənətini yaşat və təbliğ et" adlı layihənin açılış mərasimi keçirilib. Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Jalə Tofiqqızı, Gənclər və İdman İdarəsinin rəis müavini Sevinc Süleymanova, Azərbaycan Xalça Muzeyinin mətbuat xidmətinin rəhbəri Fuad Rəsul və muzeyin elmi işçisi Təranə Məlikova, Bakı Humanitar Kollecinin tələbələri, "ASAN könüllüləri" iştirak ediblər.

Tədbiri giriş nitqi ilə açan Sevinc Süleymanova qonaqları salamlayaraq bildirib ki, Azərbaycan xalq-tətbiqi sənəti olan xalçaçılıq mədəniyyət tariximizdə özünəməxsus yer tutub və böyük tarixi inkişaf yolu keçib. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın böyük zəhməti sayəsində milli xalçaçılıq sənəti 2010-cu ildə UNESCO-nun "Qeyri-maddi Mədəni İrs Siyahısı"na daxil edilib.

Layihənin mahiyyəti və əhəmiyyəti barədə məlumat verən Jalə Tofiqqızı bildirib ki, hər bir xalqın tarixində onun mənəvi dünyasını, intellektini, estetik dünyagörüşünü, həyat tərzini ifadə edən mədəniyyət və incəsənət növləri mövcuddur. Mədəniyyət tutarı coğrafi tutarından qat-qat böyük olan Azərbaycan xalqının milli dəyərlərindən biri toxuculuq və xalça sənətidir.

Tədbirdə çıxış edən Fuad Rəsul iştirakçı gənclərə layihə haqqında ətraflı məlumat verərək qeyd edib ki, layihə Prezident İlham Əliyevin 7 dekabr 2004-cü il tarixdə imzaladığı "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi" haqqında Qanunun 6-cı maddəsində qeyd olunan "Azərbaycan xalça sənətinin təbliği" bəndinə uyğun olaraq həyata keçirilir.

Çıxışlardan sonra Azərbaycan xalça sənətindən bəhs edən videoçarx nümayiş etdirilib, Təranə Məlikova isə "Xalçaçılıq sənətinin yaranma tarixi və inanclar" mövzusunda gənclərə məlumat verib.

..."Xalçaçılıq sənətini yaşat və təbliğ et" adlı layihə çərçivəsində keçirilən ikinci seminarda Azərbaycan Rəssamlar İttifaqının üzvü, Azərbaycan Xalça Muzeyinin baş rəssamı, Lətif Kərimovun tələbəsi Tariyel Bəşirov Azərbaycan xalçaları, naxışlar, ornamentlər və onların mənaları barədə ətraflı məlumat verib.

"Xalçaçılıq sənətini yaşat və təbliğ et" adlı layihənin üçüncü seminarında Binəqədi Rayon Gənclər və İdman İdarəsinin aparıcı məsləhətçisi Ülviyyə Usubova, Azərbaycan Xalça Muzeyinin mətbuat xidmətinin rəhbəri Fuad Rəsul və Muzeyin Şuşa filialının müdiri Səbinə Əzizova, Bakı Humanitar Kollecin tələbələri, rayon gəncləri və "ASAN könüllüləri" iştirak ediblər.

Azərbaycan Xalça Muzeyinin mətbuat katibi, layihənin koordinatoru Fuad Rəsul iştirakçı gənclərə layihənin mahiyyəti və əhəmiyyətindən danışıb. O qeyd edib ki, 1 ay müddətinə davam edəcək layihə çərçivəsində Azərbaycan Xalça Muzeyinin əməkdaşları mühazirə ilə çıxış edəcək, iştirakçılara əyani şəkildə milli naxışların çəkilməsi, xalçaların toxunması texnikaları öyrədiləcəkdir.

HƏRB TARİXİMİZDƏN

# Ordumuzun Horadiz zəfəri

**Azərbaycan Silahlı Qüvvələrinin apardığı uğurlu Horadiz əməliyyatının 22 ili tamam olur. Müasir hərb tariximizdə böyük əhəmiyyətə malik olan həmin əməliyyat zamanı Füzuli rayonunun 22 kəndi və Horadiz qəsəbəsi işğaldan azad edilib. Təkcə Horadiz əməliyyatı sübut edir ki, Azərbaycan əsgəri istənilən vaxt Qarabağ torpaqlarını azad etmək gücündə və qüdrətindədir. Qəzetimizin qonağı Horadiz əməliyyatının iştirakçısı, Dağlıq Qarabağda baş verən hadisələrin canlı şahidi, hazırda Binəqədi rayonu Xocəsən qəsəbəsində məskunlaşmış Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin (DİN) Füzuli Rayon Polis Şöbəsinin sabiq rəisi polis polkovniki Bünyad Məmmədovdur.**

**Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 30 iyun 2006-cı il tarixli sərəncamı ilə xidmətdə fərqləndiyinə görə Məmmədov Bünyad Hümbət oğlu "İgidliyə görə" medalı ilə təltif edilib.**



## Müharibə adamı...

Bünyad müəllim hələ 1988-ci ildən çox-çox əvvəl erməni millətçilərinin niyyətini duyan, onlara qarşı mübarizəyə qalxan zabitlərimizdən olub. O, Ağdərə, Xankəndində, Şuşada, Füzulidə işlədiyi illərdə dəfələrlə ölümlə üz-üzə gəlib. Təqaüdə çıxsa da Bünyad müəllim yenə də özünə rahatlıq tapa bilmir. Çünki uzun illər uğrunda döyüşdüyü torpağı hələ də düşmən tapdağı altındadır. Niyyətimiz ordumuzun Ali Baş Komandanı Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilmiş uğurlu Horadiz əməliyyatı barədə müsahibə almaq olsa da Bünyad müəllim bir qədər əvvəldən başladı : "Hərbi xidməti başa vurduqdan sonra 1972-ci ildə Xankəndində (Stepanakert) milis nəfəri kimi işə başlamışam. 1975-ci ildə Bakıda xüsusi milis məktəbinə qəbul olundum. Təhsilimi başa vurduqdan sonra Dağlıq Qarabağa təyinat aldım. Xankəndi şəhər milis şöbəsində azyaşlılar üzrə sahə müvəkkili təyin olundum. Az keçmədi məni Ağdərə rayon cinayət axtarış şöbəsinə işə göndərdilər. Açığını deyim bura mənim doğulduğum (Ağdərə rayonunun Narınclar kəndində doğulub) rayon olsa da işləmək çox çətin idi. Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) o biri rayonları ilə müqayisədə. Ağdərə ərazi cəhətdən böyük idi. O, bir tərəfdən Goranboy, Tərtər, Ağdam, Əsgəran, digər tərəfdən isə Laçın və Kəlbəcərlə həmsərhəddir. Bəzən rayon mərkəzindən səhər tezdən maşınla çıxsam da gün ərzində mənzil başına ancaq yetirdim. İşləyə-işləyə təhsilimi Rostovda milis akademiyasında davam etdirirdim. Yaxşı işimə görə 1985-ci ildə Şuşa rayon milis şöbəsinə rəis müavini təyin olundum. Şuşada işləmək, fəaliyyət göstərmək mənim çoxdankı arzum idi. Amma işləmək günbəgün çətinləşirdi. Artıq Qarabağda hadisələr gərginləşməyə doğru gedirdi".

## Yenidən Xankəndində...

Hələ 1988-ci ilin fevralına qədər Dağlıq Qarabağda düşmənçilik hadisələri də baş vermişdi. Erməni icması, millətçi ziyalılar, haralardan göstəriş aldıqları məlum olmasa da gecələr divarlara vərəqlər yapışdırırdılar. 1988-ci ilin fevral ayının 13-də "Krynk" cəmiyyətinin 70 nəfər üzvü iqtisadi tələblərlə Xankəndində Vilayət Partiya Komitəsinin qarşısında nümayişə çıxdılar.

Artıq mən həmin il vilayət milis idarəsinin rəisinin birinci müavini vəzifəsində işləyirdim. 28 Fevral 1988-ci ildən sonra sabiq DQMV-də vəziyyət daha da gərginləşdi. Sumqayıt hadisələrindən dərhal sonra erməni əhalisi nümayişə başladı. Ermənilər daha sərt tələblər səsləndirirdilər. Vəhşiləşmiş ermənilər heç nədən çəkinmirdilər. Azərbaycanlılar gedən avtobuslar daşlanır, güllə-baran edilirdi. Martunidəki, Hadurutdakı, lap elə Xankəndindəki azərbaycanlı evlər başdanbaşa yandırılır, insanlar hədələnib təhqir olunur və lüt-üryan evindən qovulurdular. Yaxşı yadımdadır, 88-ci ilin sentyabrı idi. Dağlıq Qarabağ Muxtar Vilayətinin daxili işlər idarəsində otağımın pəncərəsindən bayıra baxırdım. Gördüm həyətdə böyük canlanma var. Həmin gün şəhərdə böyük nümayiş başlamışdı. 20-30 min əhali xorla "minacym, minacym" deyəndə aləm lərzəyə düşürdü. Araqızışdırıcı çıxışlar çoxalmışdı. Vilayətin idarə və müəssisələrinin işçiləri, ən yaxın kəndlərin əhalisi meydana toplaşmışdı. Hava telefonu ilə Daxili İşlər Nazirliyinin müavini ilə danışdım, vilayətdə baş verən hadisələrlə onu tanış etdim. Az keçməmiş vilayətin milis idarəsinin rəisi Tumasiyan bildirdi ki, Xocalıya getmək lazımdır. İndi bu sözü demək asandı. Həmin vaxt küçələr, meydanlar qəzəbli ermənilərlə dolu idi. Dairə deyilən ərazidən keçmək lazım idi. Üstəlik də "kamaz"lar, traktorlar, Xocalıya tərəf axışırdı. Məqam tapıb elə maşının içərisində Tumasiyandan soruşdum: Xeyir ola belə hara gedirsiniz, nə baş verib? O dedi: Xocalılar bizimkiləri döyüblər, öldürüblər. Gedirik qisasımızı almağa. Halım dəyişdi. O vaxtlar vilayətdə fəaliyyət göstərən dəbilqəli sovet əsgərləri Xocalının girişində coşan, cızığından çıxan ermənilərin qarşısını kəsmişdilər. Ətrafdan qan iyi gəlirdi. Ermənilər insanlıq sifətlərini itirmişdilər. Xankəndindən Xocalıya tərəf axışıb gələn ermənilər fürsət tapıb bir neçə evi yandırmışdırlar. Vəziyyətin gərgin olduğunu görən rəis mənə işarə etdi: Əsgərlər duran tərəfə keç, səni öldürərlər. Gecə saat birə, ikiyə kimi Xocalıda qaldıq. Mən bərk həyəcanlanmışdım. Amma sağ olsun xocalılar top-tüfənglə gələn erməniləri elə eyni minvalla qarşıladılar. Apardığımız araşdırmalardan məlum oldu ki, Xocalıların üstünə gələn ermənilərin əksəriyyəti Ermənistan respublikasının vətəndaşlarıdır və onların arasında Səmərqənddən və Daşkənddən gələn ermənilər də var. Səhərə yaxın Xankəndinə gəldim, daxili işlər nazirinin müavini Kamil Məmmədov zəng etmişdi, ümumi vəziyyəti soruşurdu. Qəhər məni boğdu. Dedim Ermənistan, Səmərqənd və Daşkənddən ermənilər gəlib üstümüzə hücum çəkirlər...

## Qarabağ döyüşlərində

İlk döyüşüm Malıbəylidə olub. Yeddi nəfər milislə 14 kilometrlik sahəni düz 3 ay müdafiə etmişəm. 1988-1989-cu illərdə baş verənləri yada salanda indi də tüklərim biz-biz olur. Bir dəfə Xankəndinə Bakıdan öz əcəli ilə ölmüş erməni polkovnikinin meyitini gətirdilər. Onun dəfni yasdan çox nümayişə çevrildi. Ermənilər deyirdilər ki, bu qısası yerdə qoymayacağıq. Bunu eşidən ermənilərdən biri gəlib dedi ki, tez aradan çıx. Coşan və qəzəbli dəstə gəlib səni öldürəcək. Əvvəl-əvvəl eşitdiyimə inanmadım. Amma sonra gördüm ki, yox, vəziyyət ağırdır və maşına oturub Şuşaya qalxdım. 1989-cu ildə DQMV-də xüsusi idarə formasının tətbiq edilməsi haqqında fərman verildi. Həmin fərmanla DQMV-də bilavasitə SSRİ-nin ali dövlət hakimiyyəti və idarə orqanlarına tabe olan Xüsusi İdarə Komitəsi yaradıldı. Komitənin sədri A.İ.Volski təyin edildi. Gözləyirdik ki, vəziyyət yaxşı olacaq. Amma əksinə oldu. Volski vəziyyəti sabitləşdirmək deyil, əksinə gərginləşdirmək siyasəti yürütdü. Onun fəal "səyləri" nəticəsində az müddət ərzində vilayətin idarə və müəssisələrinin demək olar ki, hamısı Azərbaycanın tabeliyindən çıxarılaraq mərkəzin tabeliyinə keçirildi. Bütün sənədlərdə DQMV Azərbaycanın tərkibindən çıxarıldı. Vilayət İcraiyyə Komitəsinin binasının üzərində dalğalanan Azərbaycan bayrağı çıxarılıb Ermənistanın bayrağı sancıldı.

Bu dövrdə Xankəndindən qovulmuş azərbaycanlıların öz doğma ev-eşiklərinə qayıtmasına nəinki təminat yaradılmadı, əksinə, vilayətin azərbaycanlılar yaşayan kəndləri Xüsusi İdarə Komitəsinin "köməkliyi" ilə məqsədə uyğun şəkildə boşaldıldı. Ümumiyyətlə, A.İ.Volskinin "ciddi qayğısı" sayəsində vilayət demək olar ki, Azərbaycan hökumətinin nəzarətindən çıxdı. Bu azmış kimi millətçi ermənilər ayrı-ayrı ərazilərdə hərbi təlim mərkəzləri yaratdılar. Bu barədə mənə xəbər vermişdilər. Bir dəfə məlumat aldım ki, Ballıca kəndində yerləşən pioner düşərgəsində ermənilərə təlim keçirlər. Həmin əraziyə getmək olduqca təhlükəli idi. Amma buna baxmayaraq Balıcaya getdim. Yolda təhlükə ilə üzləşdiyimdən maşını meşədə qoyub piyada deyilən yerə getdim. Gecə olmasına baxmayaraq gördüm ki, 500 erməni hərbi təlim keçir. Şuşa şəhərinə gəlib




rəhbərliyə məlumat verdim. Həmin vaxt vilayətə SSRİ-nin daxili qoşunları nəzarət edirdi. Onlara rəhbərlik edən general səhəri gün məni çağırıb möhkəm danladı. Həmin gün Füzuli istiqamətində Dırbənəbəd deyilən ərazidə azərbaycanlılarla ermənilər arasında toqquşma olmuşdu. Daha dəqiq desək, bir qrup azərbaycanlı əllərində bayraq həmin əraziyə gəlmişdilər. Rus əsgərləri də həmin adamları tutub Xankəndinə gətirmək istəyirdilər. Gedib azərbaycanlıları hərbçilərdən təhvil aldım. Yolda fikirləşdim ki, bunları Xankəndində ermənilər əlimdən alıb öldürəcəklər. Odur ki, maşını Ağdama sürməyi əmr etdim və onları Ağdamdakı komendaturaya təhvil verdim. Səhəri gün məni vilayətin daxili işlər idarəsinə çağırıb sorğu-suala tutdular və işdən azad etdilər. Elə həmin il (1989) Füzuli rayon milis şöbəsinə rəis müavini sonra isə rayon icra hakimiyyətinin başçısı Aslan Mehdiyevin təkidi ilə rəis təyin olundum.

## Horadiz döyüşləri...

1993-cü ildən başlayaraq Ağdam, Füzuli istiqamətində vəziyyət gərginləşməyə başladı. Havadarlarının köməyindən yararlanan ermənilər elə həmin il Ağdamı, Füzulini Cəbrayılı, Zəngilanı, Qubadlını işğal etdi. Ulu öndər Heydər Əliyev hakimiyyətə gələndən sonra vəziyyət dəyişdi. Az vaxt ərzində Ali baş komandan Heydər Əliyev ordunu demək olar ki, yenidən komplektləşdirdi. Füzulidə yerləşən əvvəlki hərbi briqada oradan çıxarıldı. Demək olar ki, yeni ordu formalaşdırıldı. Təlimlər başlanıldı.

Göstərişə əsasən Füzuli, Cəbrayıl, Laçın, Zəngilan, Qubadlı və Xocavənd polis şöbələri Daxili Qoşunların tərkibinə verildi. Əmrlə Füzuli rayon polis şöbəsinin əməkdaşlarından ibarət yaradılmış batalyona komandir təyin edildim. Daxili qoşunlar Araz boyu istiqamətində hücuma keçməli idi. Orduda böyük ruh yüksəkliyi vardı. Bu zaman düşmənlə cəbhə xətti Əhmədbəyli və Böyük Bəhmənli kəndlərindən keçirdi. Erməni işğalçıları hələ noyabrın əvvəlində Böyük Bəhmənli kəndinə hücuma keçmiş və kəndin bir hissəsini işğal etməyə nail olmuşdular. Horadiz döyüşündən 10 gün qabaq, dekabrın sonlarında Böyük Bəhmənli kəndinə girdik. Kəndin içərisindən keçən Quru çayın sahilində mövqe tutduq. Ermənilər təxminən bizdən bir kilometr aralıdakı təpəliklərdə qərar tutmuşdular. Elə oldu ki, gündüz saatlarında kəndə gələn erməni kəşfiyyatçıları ilə atışma düşdü. Ermənilər tank və topların köməyi ilə iki istiqamətdə üstümüzə gəlməyə başladılar. Xeyli atışdıq. Sursatımız qutarmışdı. Mən sursat gətirməyə getdim. Qayıdanda mənim yaxınlığımda top mərmisinə tuş gələn polis nəfərimiz şəhid oldu. Mühasirəyə düşə bilərdik. Kəndi iki yerə bölən dəmir yolu xəttini keçib Araz çayına tərəf getmək əmrini verdim. Amma dəmir yolu xəttinin üstündə hərəkət edən erməni tankı bizə imkan vermirdi. Çox çətinliklə yolu keçib Araz çayının kənarına gəldik. Yanvarın 4-dən 5-nə keçən gecə hücum əmri aldıq.

Əməliyyat planına əsasən, hücum 3 istiqamətli desant əməliyyatı ilə başlamalı, bundan sonra cəbhə xəttində yerləşən hərbi hissələr hücuma keçərək Horadiz qəsəbəsini azad etməli idi. Şiddətli döyüş başlandı.

İşıq saçan güllələr göydə bir-biri ilə toqquşurdu. Mərmi səsindən qulaq tutulurdu. Belə döyüşləri mən kinolarda görmüşdüm. Bütün qoşun hissələri böyük ruh yüksəkliyi ilə irəliləyirdi.

Ordu isə Kürdmahmudlu – Alaxanlı kəndləri istiqamətində hücuma keçmişdilər. Az vaxt ərzində Böyük Bəhmənli kəndini azad edib Yağlıvən kəndinə üz tutduq. Artıq saat 10 idi. Baxdım ki, ermənilər tankların üstünə minib üzü Hadurut istiqamətinə qaçırlar. Horadizə çatmamış düşmənin güclü müqaviməti ilə üzləşdik. Ətraf minalandığından vəziyyət bir qədər də çətinləşdi. Ermənilər mövqe tutduqları səngərlərdən davamlı olaraq ağır çaplı silahlardan atəş açırdılar. Atışma zamanı Laçın polis batalyonundan bir nəfər şəhid oldu. Biz onun meyitini götürərək qəsəbənin yuxarısından keçən mil kanalına tərəf çəkildik. Ermənilər isə ordumuzun hücumunun qarşısını almaq məqsədilə mümkün olan vəziyyətdən istifadə etməyə çalışırdı. Hətta başlanğıcını Araz çayından götürən Maralyan arxını açıb ətrafa buraxmışdılar. Bütün yolu və ərazini su basmışdı. Havalar şaxtalı idi. Amma, buna baxmayaraq, iki gün səngərdə qaldıq. Ermənilər dinc dayanmırdılar. Bu müddət ərzində iki dəfə hücuma keçdilər və hər dəfə cavablarını aldılar. Yanvarın 7-də əmr gəldi ki, Horadiz qəsəbəsi azad olmalıdır. Ordunun və Daxili qoşunların birgə əməliyyatı başladı və Horadizi azad edərək, Molla Məhərrəmli, Qazaxlar kəndini düşməndən təmizlədik və Cəbrayılın Cocuq Mərcanlı kəndinə girdik. Həmən vaxt məlumat aldıq ki, Kürdmahmudlu kəndini işğaldan azad edən əsgərlərimiz Alxanlı kəndinə girib. Biz səngər qazıb mövqeyimizi möhkəmləndirdik. May ayına kimi Mərcanlı kəndində qaldıq. Mayın 4-də isə atəşkəs elan olundu. Demək olar ki, hamı yorulmuşdu. Hava soyuq idi. Bizi əvəz edən yox idi lakin əsgərlərimiz qələbəni qoruyub saxlamaq əzmində idi. Hətta həmin vaxt Lələ Təpəni də ala bilərdik. Onu deyim ki, ermənilər işğal etdiyi kəndləri, Horadizi çapıb talamışdılar. Evlər talan edilmiş və yandırılmışdı. Böyük Bəhəmənli kəndində bir əşya da qoymamışdılar. Hamısını yığışdırıb aparmaq üçün dəmir yol xəttinin ətrafına yığmışdılar. Bu döyüşlərdə ermənilər xeyli sayda canlı qüvvə və texnika itirdilər. Ordumuz 2 gün ərzində 40 kilometr məsafəni azad etdi. Bu böyük qələbə idi. Bu qələbədə yerli camaatın da payı var. Onlar ərzaq və isti geyimlərlə döyüşçülərə kömək etdilər. Aprel döyüşlərində olduğu kimi, Horadiz əməliyyatında da xalq Ali Baş Komandanın və ordunun yanında idi.

Sonda həmin döyüşlərin iştirakçısı kimi deyə bilərəm ki, Horadiz əməliyyatında misilsiz qəhrəmanlıq nümunələri göstərdiklərinə görə 8 nəfər Azərbaycanın Milli Qəhrəmanı adına layiq görüldü.

Hərb tariximizə Horadiz əməliyyatı kimi daxil olan bu döyüşdə hərbçilərlə yanaşı Sərhəd Qoşunlarının, Daxili Qoşunların, XTMD-nin bir neçə bölüyü, yerli taborların da əsgərləri iştirak etmişdi. Bu əməliyyat dərsliklərə salınmalıdır. Unutmayaq ki, həmin illər böyük məğlubiyyətlərdən sonra silahlı qüvvələrimiz qısa müddətdə düşmənin işğalı altında olan 22 yaşayış məntəqəsini və Horadiz qəsəbəsini azad ediblər. Bu qələbə Heydər Əliyevin rəhbərliyi ilə güc strukturlarının birgə koordinasiyası nəticəsində baş tutub.

# Binəqədili gənc müdafiə naziri tərəfindən mükafatlandırılıb

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Müdafiə Nazirliyinin rəhbər heyəti müdafiənin ön xəttində yerləşən bölmələrdə olub və üzbəüz düşmən mövqelərini müşahidə ediblər.

Şəxsi heyətlə görüşən müdafiə naziri, general-polkovnik Zakir Həsənov hərbi qulluqçuların döyüş və mənəvi-psixoloji hazırlığı, onların sosial-məişət şəraiti ilə maraqlanıb. Nazirə ərazidəki əməliyyat şəraiti, bölmələrimizin hazırlıq vəziyyəti və qarşı tərəf barədə ətraflı məruzə edilib.

Ön xətdə döyüş növbəsi çəkən hərbi qulluqçuları qarşıdan gələn 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramları münasibəti ilə təbrik edən general-polkovnik Zakir Həsənov Ali Baş Komandanın adından Binəqədi rayonunun ən fəal gənclərindən biri Mahmud Mahmudova xidmətdə fərqləndiyi üçün medal və mükafat təqdim edib.





ASLAN MEHDİYEV 70

# Əsl insan haqqında...

**Keçirdiyimiz hər gün tarixə dönür. Həyatımızda elə günlər var ki, tezliklə unudulub gedir, elələri də var, onlar heç vaxt yaddan çıxmır. Belə günləri unudulmaz edən isə insanın faydalı ömür sürməsi, Vətənə və millətə xidmət etməsidir. Müsahibimiz ömrünü məhz bu amallara həsr etmiş Aslan Mehdiyevdir.**

**Dekabrın 31-də 70 yaşını başa vuran Aslan müəllim 1969-cu ildə Kənd Təsərrüfatı Akademiyasını bitirdikdən sonra doğulduğu Füzuli rayonunun Yağlıvənd kəndində ("Ukrayna" sovxozu) aqronom kimi əmək fəaliyyətinə başlayıb. Bir müddət rayon komsomol komitəsinin I katibi vəzifəsində çalışıb. 1978-1983-cü illərdə Füzuli rayon partiya komitəsində katib və Xalq Deputatları Sovetinin (XDS) İcraiyyə Komitəsinin sədri işləyib. 1983-1985-ci illərdə Azərbaycan KP MK-nın partiya işi şöbəsində inspektor vəzifəsində çalışıb. 1985-1989-cu illərdə Cəlilabad rayon XDS İcraiyyə Komitəsinin sədri, 1990-cı ildə Füzuli rayon partiya komitəsinin birinci katibi işləyib. 1991-ci ildə isə həmin rayonda icra hakimiyyətinin başçısı təyin edilib. 1990-1995-ci illərdə Azərbaycan Respublikası Ali Sovetinin deputatı seçilib. Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktına səs verən deputatlardan biri olub. 1992-ci ildən 2012-ci ilə kimi Kənd Təsərrüfatı Nazirliyində idarə rəisi işləyib. Bu müddət ərzində iki dəfə "Şərəf" nişanı ordeni ilə təltif olunub. Müharibə və əmək veteranıdır. Hazırda isə Binəqədi Rayon İcra Hakimiyyəti yanında İctimai Şuranın sədri və rayon Ağsaqqallar Şurası idarə heyətinin üzvüdür.**



***– Aslan müəllim, 70 il necə keçdi, uğurlarınız daha çox oldu, yoxsa...***

– Təvazökarlıqdan uzaq olsa da, şanslı gənc olmuşam. 1969-cu ildə gənc aqronom kimi təyinatla kəndimizdə işə başlamışam. Az bir müddətdə gördüyüm işlər rayon rəhbərliyinin diqqətini cəlb edib. Onların tövsiyəsi ilə rayon komsomol komitəsinin I katibi təyin olundum. Sonralar müxtəlif məsul vəzifələrə irəli çəkildim. Ömrümün ən maraqlı anı ulu öndər Heydər Əliyevlə görüşüm olub. Qismət elə gətirib ki, mən onunla ilk dəfə 27 yaşımda – 1974-cü ildə görüşmüşəm. O vaxtlar Azərbaycan KP-nin birinci katibi işləyən Heydər Əliyev şəxsən məni qəbul etdi və onun razılığı ilə məsul vəzifəyə göndərildim. 1978-ci ildə ulu öndərlə ikinci görüşümüz oldu və mənimlə 25 dəqiqə söhbət etdi. Üçüncü görüşümüz isə 1982-ci ilə təsadüf edib. Həmin il ulu öndər Füzuliyə gəlmişdi, Horadiz dəmiryol stansiyasında onu qarşıladıq. Zəhmətkeşlərlə görüşən ümummilli lider bizimlə də geniş söhbət etdi. Bu görüşlər zamanı Heydər Əliyevin necə qayğıkeş, həssas, vətənpərvər insan olduğunu bir daha hiss etdim. Həmin anlar həyatımda ən yaddaqalan və qiymətli günlər idi. Uzun illər ulu öndərin rəhbərliyi altında müxtəlif məsul vəzifələrdə çalışmışam və bu müddət ərzində daim onun qayğısını hiss etmişəm.

Əminliklə demək olar ki, hazırda Azərbaycanın mövcudluğu, inkişafı və tərəqqisi bu dövlətin Heydər Əliyev tərəfindən yaradılmış özülünün kifayət qədər möhkəmliyi ilə bağlıdır. Heydər Əliyevin yaratdığı möhkəm baza üzərində qurulan Azərbaycan dövləti həyatın bütün sahələrində böyük uğurlar əldə edir. Ulu öndər xalqımızın ən ağır günlərində ona dayaq oldu, ölkəni ciddi təhlükələrdən xilas edə bildi. Bu insan müstəqil dövlətimizi qurub, müasir Azərbaycan cəmiyyətini formalaşdırıb, cəmiyyətimizin əsas dəyərlərini müəyyənləşdirib və həmin dəyərlər bu günkü inkişafımızın əsas təməl prinsiplərini təşkil edir.

***– Ən çətin vaxtlarda cəbhəyanı rayonda rəhbər vəzifədə işləmisiniz...***

– Mən 1990-cı ildə Füzuli rayon partiya komitəsinin birinci katibi 1991-ci ildə isə həmin rayonun icra hakimiyyəti başçısı vəzifəsində çalışmışam. O illəri yaşlı insanlar daha yaxşı xatırlayır. Olduqca çətin günlər yaşayırdıq. Ermənilər demək olar ki, Dağlıq Qarabağda olan Azərbaycan kəndlərini tamamilə blokadaya almışdılar. Hər gün erməni silahlıları kəndlərimizə hücum edir, insanları qorxu altında saxlayırdılar. Rayonumuz Dağlıq Qarabağın sərhədində yerləşdiyindən biz burada yaşayan azərbaycanlılara kömək göstərirdik, onları ərzaq və silah-sursatla təmin edirdik. Lakin vəziyyət getdikcə daha da ağırlaşırdı. Azğınlaşmış yaraqlılar Füzuli rayonunun sərhəd kəndlərinə tez-tez basqınlar təşkil edirdilər. Ölənlərimiz və girov düşənlərimiz var idi. Rayonu müdafiə etmək üçün özünümüdafiə batalyonları formalaşdırılmışdı. Demək olar ki, günümüz sərhəd kəndlərində qurulmuş postlarda keçirdi. Əhalini müdafiə etmək üçün rayonda qərargah yaradılmışdı. Həmin vaxtlar ermənilər toplardan Füzuli şəhərinə də atəş açırdılar. Gecəmiz-gündüzümüz yox idi. İndi bəlkə də bir qədər qəribə səslənər: inanın ki, o zaman "sxoy payokla" dolanırdıq, demək olar ki, ev üzü görmürdük. Amma çətinliklə olsa da, batalyonları və postlarda duranları silah-sursatla təmin edirdik. Hətta onların əmək haqlarını da rayonun gəliri hesabına ödəyirdik. Bununla yanaşı, təsərrüfat işləri də qaydasında gedirdi. Həmin illər bizim rayonda rekord səviyyədə taxıl və üzüm tədarük olunmuşdu. Taxılın hamısı əhaliyə paylandı ki, insanlar rayonu tərk etməsinlər. Onu deyim ki, görülən işlər nəticəsində həmin illər bir qarış torpağı belə, düşmənə vermədik.

***– Aslan müəllim, gənclərimizə tövsiyəniz...***

– İndi mən babayam, 4 övladım, 7 nəvəm var. Övladlarımdan ikisi universitetdə müəllim, biri həkim, biri isə kütləvi informasiya vasitələrində çalışır. Böyük nəvəm Nərmin Nəcəfli Almaniyada musiqi Akademiyasında təhsil alır, pianoçudur. O, hər il Qəbələdə keçirilən ənənəvi beynəlxalq musiqi festivalına dəvət olunur, Avropa ölkələrində keçirilən musiqi müsabiqələrində iştirak edir və fəxri yerlər tutur. Bu günlərdə isə Polşa və İtaliyada olub. İndi isə vaxt tapıb babasını təbrik etməyə gəlib. Prezident təqaüdçüsüdür, bu il Prezident mükafatına layiq görülüb. Kiçik yaşlarından birinci xanım Mehriban Əliyevanın Avropada təşkil etdiyi tədbirlərin iştirakçısı olub. Müstəqilik günü ilə əlaqədar ötən ay Azərbaycan səfirliyinin Berlin şəhərində təşkil etdiyi tədbirdə ölkəmizi uğurla təmsil edib. Bir baba kimi, bu məni çox sevindirir. İstəyirəm ki, bütün gənclərimiz dərslərini yaxşı oxusunlar, idmanda və digər sahələrdə ölkəmizi layiqincə təmsil etsinlər. Böyük-kiçik yeri bilsinlər, Vətəni sevsinlər. Çox istərdim ki, gənclərimiz hərbçi olmağa üstünlük versinlər. Çünki işğal altında olan torpaqlarımızı yağı düşməndən vətənini, millətini canından çox sevən gənclərimiz azad edəcəklər.

***– Ən böyük arzunuz...***

– Mən yurd həsrətli adamam. Doğulub boya–başa çatdığım kəndimiz 23 ildir işğal altındadır. Bu məni olduqca narahat edir. Bəzən elə olur ki, o illəri xatırlayanda özümə yer tapa bilmirəm. Tez-tez Horadizə və Füzulinin işğaldan azad edilmiş digər ərazilərinə gedirəm. Amma bunlar qəlbimdə olan boşluğu doldurmur. Ən böyük arzum uşaqlıq və gənclik illərində gəzdiyim kəndimə getmək, əzizlərimin qəbrini ziyarət etməkdir. O yerlərin havası və təbiəti üçün çox darıxmışam. Aprel döyüşləri göstərdi ki, biz o torpaqları az bir müddət ərzində azad edə bilərik. Çünki Ali Baş Komandan, Prezident İlham Əliyevin səyi nəticəsində Azərbaycan Silahlı Qüvvələri dünyanın ən yaxşı ordusu sırasına yüksəlib. İnanıram ki, yaxın illərdə cənab İlham Əliyevin rəhbərliyi ilə Qarabağ torpaqları düşmən tapdağından təmizlənəcək və biz də öz arzumuza çatacağıq...

# İqtisadi islahatlar dinamik inkişafa təkan verir

Azərbaycan Respublikasının müstəqilliyi dövründə ölkə iqtisadiyyatı böyük inkişaf yolu keçmiş və öz uğurlu göstəricilərinə görə regionda liderliyini qoruyub saxlamışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Nazirlər Kabinetinin 2016-cı ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında qeyd etmişdir ki, dünya iqtisadiyyatında böhranlı vəziyyət davam edir. Ancaq sevindirici hal ondan ibarətdir ki, bizim sənayemiz artır. Sənaye potensialımız 0,2 faiz, qeyri-neft sektoru 3,6 faiz, kənd təsərrüfatı 2,4 faiz artımışdır. Düzgün aparılan iqtisadi islahatlar və görülən işlər gələcəkdə daha da böyük həcmdə nəticələr verəcəkdir.



Əldə olunmuş nailiyyətə Binəqədi rayonu da öz töhfəsini vermişdir. Rayon ərazisində magistral və məhəllədaxili yolların təmiri, parkların yenidən qurulması, yaşayış binalarında və sosial obyektlərdə kommunikasiya xətlərinin dəyişdirilməsi, aparılan təmir-tikinti və abadlıq işləri buna əyani sübutdur. Binəqədi rayonunun sosial-iqtisadi həyatında cari ilin doqquz ayında görülən işlərin yekunu olaraq, müsbət nəticələr əldə olunmuşdur. Belə ki, rayonda sənaye məhsulu istehsalı və bu sahədə əhaliyə göstərilən xidmətlərin həcmi 159.628,8 min manat təşkil etmiş, istehlakçılara 168.484,3 min manatlıq, ümumi sənaye istehsalından 5,6 faiz çox sənaye məhsulu göndərilmişdir. Sənaye müəssisələrinin anbarlarında 12.219,9 min manatlıq hazır məhsul qalığı qeydə alınmışdır. Sənaye sektorunda 6432 nəfər çalışmış, orta aylıq əməkhaqqı 468,0 manat təşkil etmişdir.

Nəqliyyat sektorunda fəaliyyət göstərən müəssisələr tərəfindən hesabat dövründə 28.830,9 min manatlıq xidmətlər göstərilmiş, işçilərin sayı 4798 nəfər, orta aylıq əməkhaqqı isə 356,8 manat təşkil etmişdir. İnformasiya və rabitə sahəsində xidmətlərin həcmi 3884,1 min manat, işçilərin sayı 528 nəfər, orta aylıq əməkhaqqı isə 391,1 manat olmuşdur. Tikinti sektorunda sosial-iqtisadi sahələrin inkişafı üçün bütün maliyyə mənbələri hesabına əsas kapitala 46.829,1 min manat məbləğində investisiya yönəldilmiş, həmin məbləğin 42.486,7 min manatı tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur. Cari ilin doqquz ayında 18.989,9 min manat həcmində əsas fondlar istifadəyə verilmişdir. Tikintidə çalışanların sayı 3474 nəfər, orta aylıq əməkhaqqı isə 386,2 manat təşkil etmişdir.

Pərakəndə ticarət şəbəkələrindən əhaliyə 764.744,6 min manatlıq istehlak malları satılmış, müvafiq dövrə nisbətən 5,1 faiz artmışdır. İaşə xidmətinin həcmi 42.279,0 min manat olmuşdur. Əhaliyə göstərilən ödənişli xidmətlərin həcmi 2016-cı ilin doqquz ayında 291.837,2 min manat təşkil etmiş, ödənişli xidmətlərin 15,8 faizi dövlət sektorunun payına düşmüş, 9,6 faizini isə məişət xidmətləri təşkil etmişdir. Cari ilin hesabat dövründə rayon üzrə muzdla işləyənlərin orta sayı 40.987 nəfər, dövlət sektorunda çalışanların sayı 15.779 nəfər, qeyri-dövlət sektorunda isə 25.208 nəfər olmuşdur. Orta aylıq əməkhaqqı 407,8 manat təşkil etmişdir.

2016-cı il oktyabrın biri vəziyyətinə Binəqədi rayonunda daimi olmaqla 4541 yeni iş yeri açılmış və beləliklə, bu sahədə əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 32,9 faiz artım qeydə alınmışdır. Rayonda 3017 nəfərin doğumu, 943 nəfərin isə ölümü qeydə alınmışdır. Təbii artım 2074 nəfərdir. İlin əvvəlindən 401 boşanma qeydə alınmış, 1515 nikah bağlanmışdır. Rəsmi statistikaya görə daimi əhalinin sayı 262,5 min nəfərə, qaçqınların sayı 15.577 nəfərə, məcburi köçkünlərin sayı isə 31.243 nəfərə çatmışdır.

Respublikada aparılan iqtisadi islahatlar Binəqədi rayonunda da uğurlu inkişaf etdirilir və deməyə əsas verir ki, 2016-cı ilin yekununda rayon üzrə qarşıya qoyulan bütün sosial-iqtisadi məsələlər müvəffəqiyyətlə öz həllini tapacaqdır.

*Hamlet MƏMMƏDOV,*
*Binəqədi Rayon Statistika Şöbəsinin rəisi*

# Yeni yerüstü piyada keçidi inşa olunur



Bakı-Şamaxı avtomobil yolunun 12.8-ci kilometrliyində, Binəqədi rayonu Sulutəpə qəsəbəsi ərazisində yeni yerüstü piyada keçidinin inşası işlərinə başlanılıb. Xatırladaq ki, sözügedən keçid Azərbaycan Prezidenti İlham Əliyevin piyadaların avtomobil yollarını rahat və təhlükəsiz şəkildə keçməsini təmin etmək istiqamətində verdiyi göstəriş və tapşırıqlarına əsasən tikilir. Xocəsən bələdiyyəsindən qəzetimizə verilən məlumatda qeyd edilib ki, aşırım və pilləkan hissəsi metal konstruksiyalı olacaq keçid avtonəqliyyat vasitələrinin və piyadaların intensiv hərəkət etdiyi ərazidə inşa edilir. Məqsəd həm piyadaların rahat və təhlükəsiz şəraitdə avtomobil yollarını keçməsini təmin etmək, həm də avtonəqliyyat vasitələrinin fasiləsiz və maneəsiz hərəkətini təşkil etməkdir.

Yüngül konstruksiyalı piyada keçidi 1 aşırımlı (orta dayaqsız) və üstü açıq olacaq, pilləkan hissələr də daxil olmaqla, qalereyasının ümumi uzunluğu 64.75 metr, eni isə 3 metr olacaq. Keçidin yol səthindən hündürlüyü 5.5 metr olması nəzərdə tutulub.

Qeyd edək ki, keçiddə fiziki məhdudiyyətli insanların hərəkəti üçün panduslar da quraşdırılacaq.

# Balaca fidanların Yeni il şənliyi



Binəqədi rayonu 158 saylı körpələr-evi uşaq bağçasında Yeni il bayramı münasibətilə "Qış sərgisi" və "Rəssam qızın nağılı" adlı bayram şənliyi keçirilib. Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Jalə Tofiqqızı, bağçanın müdiri Rəfiyyə Əsədova, "Humel" Psixologiya Mərkəzinin baş psixoloqu Ülviyyə Hümmətova, uşaq psixoloqu Ülkər Sadıqova və balaca fidanlar iştirak ediblər.

Öncə uşaqların qış fəslini ehtiva edən əl işləri, rəsm nümunələrinə baxış keçirilib. Rəfiyyə Əsədova qonaqları salamlayaraq iştirakçılara bayram təbriklərini çatdırdıqdan sonra Jalə Tofiqqızı çıxış edərək hər bir valideynin ən böyük arzusunun övladlarını sağlam, güclü, savadlı, Azərbaycanın layiqli vətəndaşı kimi görmək olduğunu vurğulayıb: "Bu gün dövlətimiz bunun üçün əlindən gələni edir. Hazırda Azərbaycan sürətlə inkişaf edən, gündən-günə müasirləşən, gözəlləşən bir dövlətdir. Əslində, ölkəmizdə həyata keçirilən bütün işlər, layihələr, təməli qoyulan planlar gələcəkdə, əziz balacalar, sizin güvənli, sağlam və xoşbəxt ömür sürməyinizə xidmət edir. Sizə cansağlığı, sevinc dolu günlər arzu edirəm. Qoy heç zaman simanızdan təbəssüm əskik olmasın".

Sonra uşaqların ifasında "Rəssam qızın nağılı" nümayiş olunub, Yeni ilə həsr olunmuş şeirlər, mahnılar səsləndirilib. Balacaların nümayiş etdirdiyi kompozisiya maraqla izlənilib. Tədbirdə Şaxta baba və Qar qızın şənliyə gəlməsi, uşaqların bayramını təbrik etməsi və onlarla rəqs etməsi körpələrin sevincinə səbəb olub.

X Ə B Ə R D A R L I Q

# Təhlükəsizlik qaydalarına ciddi riayət olunmalıdır!

Təqvim ilinin dəyişməsi – Yeni il dünyanın müxtəlif xalqları üçün ənənəvi bayrama çevrildiyi kimi, Azərbaycanda da insanların məişətinə daxil olmuşdur. Hər il dekabr ayının sonu, yanvar ayının əvvəllərində evlərdə, təhsil ocaqlarında, istirahət parklarında və digər obyektlərdə bəzədilərək işıqlandırılmış yolkalar qurulur. İnsanlar, xüsusən də uşaqlar yolkanın ətrafında təşkil olunan şənlikdə iştirak edir, əylənirlər.

İnsanların bir yerə toplaşdıqları Yeni il şənliklərində onların təhlükəsizliyinin qorunması vacibdir. Xüsusilə atəşfəşanlıqla müşayiət edilən belə şənliklərdə yanğın ehtimalı çox olduğundan, yanğın təhlükəsizliyi qaydalarını bilmək və ona əməl etmək olduqca vacibdir. Ona görə də Yeni il şənliyi keçirilən obyektlərin rəhbərləri, şənlik iştirakçıları bilməlidirlər ki, mülkiyyət formasından asılı olmayaraq, bütün obyekt və müəssisələrdə (sahibkarlıq subyektlərində və s.) yanğın təhlükəsizliyinin təmin edilməsində cavabdehlik onların rəhbərlərinin üzərinə düşür.

Obyektin bütün işçiləri yanğına qarşı təlimatlandırılmalı və onlar baş verə biləcək yanğın hadisəsi zamanı vəzifələrini dəqiq bilməlidirlər:

Ehtiyat çıxış yollarının qarşısı əşyalarla tutulmamalı və sərbəst çıxışa mane olan qurğular quraşdırılmamalıdır. Köçürmə yolları işıqlandırılmalı və birbaşa çıxışa doğru açılması təmin edilməlidir!

Yeni il yolkası binanı tərk etməyə iki sərbəst çıxış yolu olan və ehtiyat çıxış qapılarının üzərində yaşıl rəngli "ÇIXIŞ" sözü (elektriklə işıqlandırılmış) yazılmış göstərici lövhə asılan, eləcə də ikinci mərtəbədən yuxarı olmayan və yanmayan arakəsmələr olan otaqlarda qurulmalıdır!

Yolka ağacı yerə möhkəm bərkidilməli, dayaqlar üzərində elə quraşdırılmalıdır ki, onun budaqları tavana və divarlara toxunmasın!

Yeni il şənlikləri zamanı tikintinin imkanlarından (normadan) artıq insanların zala buraxılmasına (toplanmasına) yol verilməməlidir!

Yeni il şənlikləri keçirilən yerlər ilkin yanğınsöndürmə vasitələri ilə təmin edilməlidir!

Yeni il şənliklərində atəşfəşanlıq məqsədilə pirotexniki vasitələrdən, həmçinin yanğın təhlükəli işıqlandırıcı maddələrdən istifadə edilməsi qadağandır!

Yeni il şənlikləri keçirilən obyektlərin pəncərələrində dəmir barmaqlıqlar olmamalıdır!

Yeni il şənliklərində yolkanın şamla işıqlandırılmasının yanğın təhlükəsi yaratdığını nəzərə alaraq, buna yol verilməməlidir!

Yolka bəzədilərkən pambıqdan, tənzifdən və s. tezalışan parçalardan istifadə edilməməlidir!

Yeni il şənlikləri keçirilən zaman uşaqların geydiyi şənlik paltarları tezalışan materialdan olmamalıdır!

Tədbir keçirilən obyektlərdə giriş və çıxışlarda insanların toplaşmasına, əşyaların (stol, stul və s.) yığılmasına yol verilməməlidir!

Otaqlarda işıqlandırma sistemi olmadıqda tədbir yalnız gündüzlər keçirilməlidir!

Şam ağacının bəzədilməsində istifadə olunan lampalar ardıcıl qoşulmalı və bu zaman gərginlik 12 voltdan, cərəyan 25 vatdan artıq olmamalıdır!

Tədbir zamanı qaynaq, rəngləmə və digər yanğıntörədici partlayış təhlükəli işlərin görülməsi qadağandır!

Oturacaqların ara məsafəsinin azaldılması, əlavə stul və kreslolar qoyaraq cərgəarası keçidlərin bağlanması yolverilməzdir!

Yanğın təhlükəsizliyinə cavabdeh olan növbətçilərin və digər məsul şəxslərin olmadığı zaman obyektlərdə tədbir keçirmək olmaz!

**Yanğın zamanı nə etməli**

Tədbir zamanı yanğın baş verdikdə dərhal Fövqəladə Hallar Nazirliyinin 112 qaynar xəttinə zəng vuraraq məlumat vermək lazımdır!

İşıqlandırıcı vasitələr dərhal şəbəkədən ayırılmaqla söndürülməlidir!

Tədbir iştirakçılarının dərhal təxliyyə olunmasına başlanılmalıdır!

Əldə olunan vasitələrlə yanğının söndürülməsinə başlamaq lazımdır!

**Yeni il şənlikləri zamanı yanğın təhlükəsizliyinə əməl edin!**

***Dövlət Yanğın Nəzarəti Xidmətinin***
***Yanğına qarşı təbliğat şöbəsi***

Binəqədi Rayon İcra Hakimiyyətinin
Sakinlərin Müraciət Xidməti




Sizin zənginiz bizim üçün çox əhəmiyyətlidir!
www.binegedi-ih.gov.az

# 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür

**"Biz azərbaycançılığın dövlət rəmzlərini yaşadan müstəqil dövlətimiz ətrafında daha sıx birləşməli, onun tərəqqisi üçün əlimizdən gələni əsirgəməməliyik"**
***Heydər ƏLİYEV***




Dekabrın 31-i Azərbaycan xalqının birlik şüarının rəmzi günüdür. Bu bayram ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır. Dünyanın 70-dən çox ölkəsində azərbaycanlılar tərəfindən qeyd olunan həmrəylik günü bütün dünya azərbaycanlıları tərəfindən artıq bir zərurətə və mənəvi ehtiyaca çevrilmişdir.

Binəqədi rayonunda da Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü hər il yüksək səviyyədə keçirilir. Artıq bayram münasibətilə rayonda hazırlıq işlərinə başlanılıb və tədbirlər keçirilir. Xatırladaq ki, 1991-ci ilin 16 dekabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq, dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etdi. Beləliklə, bütün azərbaycanlılar üçün əziz olan bu tarix möhtəşəm bayrama - birliyimizin təntənəsinə çevrildi. Ümummilli liderin təşəbbüsü ilə tarixə düşən bu qərar dünya azərbaycanlıları arasında həmrəylik hissini daha da gücləndirdi.

Minilliklər boyu öz doğma torpağı olan tarixi Azərbaycan ərazisində yaşayan xalqımız dünya sivilizasiyasına böyük töhfələr vermişdir. Tarix boyu müharibələr, inqilablar, hərbi münaqişələr, dünyada gedən müxtəlif ictimai-siyasi proseslər nəticəsində Azərbaycan zaman-zaman parçalanmış, azərbaycanlıların bir qismi öz yurd-yuvalarından didərgin salınmış, deportasiyalara məruz qalmış, bir-birindən ayrı düşmüşdür. İş tapmaq, təhsil almaq məqsədilə doğma yurdu tərk edərək başqa ölkələrdə qərar tutub yaşayan azərbaycanlılar da vardır. Hal-hazırda Rusiyada, Ukraynada, Müstəqil Dövlətlər Birliyinin digər ölkələrində, Baltikyanı dövlətlərdə, Avropada, Amerikada, Şərq ölkələrində iri Azərbaycan icmaları yaradılmışdır.

XX əsrin əvvəllərindən təşəkkül tapan və fəaliyyətini son dövrlərdə xeyli gücləndirən Azərbaycan diasporu bugün yeni bir inkişaf mərhələsindədir. Diasporumuzun dünyanın müxtəlif ölkələrində formalaşan özəkləri, birlikləri Azərbaycan dövlətinin, Azərbaycan mədəniyyətinin, Azərbaycan həqiqətlərinin tanınması və təbliği işində radio və televiziyanın, dövri mətbuatın imkanlarından geniş istifadə edir. Hazırda dünyanın bir çox ölkələrində Azərbaycan dilində müxtəlif qəzet və jurnallar nəşr olunur, xüsusi radio və televiziya verilişləri hazırlanır. Dünyanın 30-dan çox ölkəsində azərbaycanlıların 100-dən artıq ictimai, milli və mədəni cəmiyyət və təşkilatları fəaliyyət göstərir. Müstəqillik qazanıldıqdan sonra əldə olunan nailiyyətlər sayəsində bütün dünya azərbaycanlılarının milli hüquqlarının, beynəlxalq haqlarının həyata keçirilməsinə geniş imkanlar açılmışdır. 2001-ci il noyabrın 10-da ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Bakı şəhərində keçirilən Dünya Azərbaycanlılarının birinci qurultayında 36 ölkədən gəlmiş 1105 nümayəndə, 906 qonaq iştirak etmişdir. Qurultayda ulu öndərin söylədiyi proqram səciyyəli nitqinin aparıcı xəttini belə bir tezis təşkil edirdi: "Biz azərbaycançılığın dövlət rəmzlərini yaşadan müstəqil dövlətimiz ətrafında daha sıx birləşməli, onun tərəqqisi üçün əlimizdən gələni əsirgəməməliyik". Qurultay göstərdi ki, qüdrətli Azərbaycana gedən yol bütün azərbaycanlıların milli birliyindən keçir. Bu tədbir dünyanın müxtəlif qütblərinə səpələnmiş soydaşlarımızın bir araya gətirilməsi vəzifəsinin həyata keçirilməsi istiqamətində atılmış ilk ciddi və qəti bir addım idi. Qurultay Azərbaycanın Avroatlantika məkanına inteqrasiyasına kömək edəcək diasporumuzun inkişafında həlledici əhəmiyyətə malik qərarlar qəbul etdi.

Bununla da türk dünyasının böyük lideri Heydər Əliyev minillik tariximizdə dünya azərbaycanlılarını ilk dəfə bir araya gətirən böyük dövlət xadimi kimi yaddaşlara həkk olundu.

# Binəqədi Yeni il şənliyinə hazırlaşır

## Heydər Əliyev adına Mədəniyyət və İstirahət Parkında rayonun baş yolkası qurulub

Dünya ictimaiyyəti 2017-cü ilin gəlişini təntənə ilə qeyd edəcək. Hazırda respublikamızın bütün bölgələrində bu əlamətdar bayramla bağlı hazırlıq işləri davam etdirilir, yolkalar qurulur, atəşfəşanlığa hazırlıq gedir. Bayram əhval-ruhiyyəsini paytaxtın Binəqədi rayonunun prospekt, küçə və meydanlarında, park və xiyabanlarında da müşahidə etmək mümkündür.




Yeni ilin yüksək səviyyədə keçirilməsi üçün Binəqədi Rayon İcra Hakimiyyəti tərəfindən xüsusi tədbirlər planı hazırlanıb. Tədbirlər planı çərçivəsində rayonun müxtəlif ərazilərində yerləşən parklar yolka və digər bayram atributları ilə bəzədilir, Heydər Əliyev adına Mədəniyyət və İstirahət Parkında isə möhtəşəm bayram şənliyinin təşkili planlaşdırılır. Artıq bununla bağlı parkda genişmiqyaslı hazırlıq işlərinə start verilib.

Bayram şənliklərinə hazırlıq prosesini əyani şəkildə izləmək üçün bu günlərdə həmin parkda olduq. Ərazi əsl bayram əhval-ruhiyyəsində bəzədilmişdi. Park boyunca Yeni il şənliyinə hazırlıq işi sürətlə davam etdirilirdi. Rayonun parkda qurulmuş baş yolkası möhtəşəm görünüşü ilə rayon sakinlərinin bayram ovqatını daha da gücləndirirdi. Yolkanın ətrafında toplaşmış azyaşlı uşaqlar isə Yeni il rəmzinə çevrilmiş Şaxta baba və Qar qızın gəlişini səbirsizliklə gözləyirdilər. Şənliklərin yüksək səviyyədə təşkili, sakinlərin rahatlığının və təhlükəsizliyinin təmini məqsədilə bayram günlərində parkın işıqlandırma sistemi xüsusi diqqət mərkəzində saxlanılacaq. Bayramla əlaqədar parkda əlavə dekorasiya da quraşdırılıb, ərazidə bayram meydançalarının yaradılması nəzərdə tutulub. Bundan əlavə, rayonun ayrı-ayrı ərazilərində quraşdırılmış elektron lövhələr vasitəsilə sakinlərə Binəqədi RİH rəhbərliyinin bayram təbriki çatdırılacaq. Şənliklər Yeni il gecəsi – dekabrın son günündə möhtəşəm konsert proqramı və atəşfəşanlıqla davam etdiriləcək.

Bayrama hazırlıq məqsədilə görülən işlər rayon sakinlərinin də ürəyincədir. Görülən işlərdən razılığını ifadə edən rayon sakini Kainat Qədimova əvvəllər ərazidə müasir və abad parkın olmaması səbəbindən bayram günlərində şəhərin müxtəlif ərazilərinə üz tutmağa məcbur olduqlarını bildirdi: "Rayonumuzda əhalinin səmərəli istirahətinin təşkili məqsədilə abad parklar salınıb və artıq sakinlər Yeni il şənliklərini bu gözəl məkanda keçirmək imkanı qazanıblar. Sevindirici haldır ki, rayonun əksər küçə və parklarında, meydanlarında da bayram ab-havasını indidən hiss etmək mümkündür. Hətta məhəllələrdəki mini-parklarda da yolkalar qurulub. İnsanların rahatlığı üçün bayram şənliklərinin keçiriləcəyi ərazilərdə satış yarmarkalarının da təşkili olunacağı bildirilir".

Yeni il şənliyində Xocəsən, Binəqədi, Biləçəri və "28 May" qəsəbələrində yerli bələdiyyələrin təşkilatçılığı ilə yolka şənliklərinin təşkili, habelə rayonun musiqi kollektivlərinin rəngarəng çıxışları da nəzərdə tutulur.

# "Lider qızların idarəçilik məktəbi"

Binəqədi rayonu M.Ə.Rəsulzadə bələdiyyəsinin təşkilati dəstəyi və GİZ - Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin "Yerli özünüidarəetmə Proqramı"nın maliyyə dəstəyi ilə M.Ə.Rəsulzadə bələdiyyəsinin üzvü Ayla İbrahimovanın rəhbəri olduğu "Lider qızların idarəçilik məktəbi" adlı layihənin açılış tədbiri keçirilib.

Tədbirdə M.Ə.Rəsulzadə bələdiyyəsinin sədri Hümbət Hüseynov, "Qadınlar bələdiyyələrin inkişafı uğrunda" İctimai Birliyinin sədri Lyudmila Xəlilova, bələdiyyə üzvləri və qəsəbə ərazisində təhsil alan məktəbli qızlar iştirak ediblər.



Layihənin növbəti mərhələsi kimi, qəsəbə ərazisində təhsil alan məktəbli qızların Bakı Tekstil Fabrikinə ekskursiyası təşkil edilib. Ekskursiya zamanı məktəbli qızlar istehsalat prosesi ilə tanış olublar, onlara liderlik bacarıqları ilə bağlı təlim keçirilib.